ALEKSANDR ALEKSANDROVİÇ BLOK

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI
2007

*Bu kitab "A.Blok. Tale gəmisi" (Bakı, Yazıçı, 1980) və "Dünya Uşaq Ədəbiyyatı Kitabxanası. XXXIII cild" (Bakı, Gənclik, 1987) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Rus dilindən tərcümə edənlər: **Eyvaz Borçalı**
**Cabir Novruz**
**Tofiq Mahmud**
**İsa İsmayılzadə**

**ISBN 978-9952-34-114-0**

**891.7/11-dc22**
1. Rus ədəbiyyatı – XX əsr. 2. Rus poeziyası – XX əsr.

**Aleksandr Aleksandroviç Blok. Seçilmiş əsərləri.**
Bakı, "Şərq-Qərb", 2007, 144 səh.

Kitaba rus poeziyasının görkəmli və qüdrətli şairlərindən biri Aleksandr Blokun rus torpağının və təbiətinin rəngarəng gözəlliklərindən, lirik şairin həyata fəlsəfi və romantik baxışlarından, yüksək vətəndaşlıq motivlərindən bəhs edən şeirləri və poemaları daxil edilmişdir.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Aleksandr Blok rus poeziyasının ən böyük simalarından biridir. Onun adı haqlı olaraq Puşkin, Lermontov, Nekrasov, Mayakovski və başqaları ilə bir sırada çəkilir. Şair XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb yaratmışdır. 1880-ci ildə anadan olmuş, 1921-ci ildə vəfat etmişdir. Cəmi 41 il ömür sürmüşdür. Qısa bir şair ömrü... Bu 41 il əsrlərin müqabilində bir göz qırpımıdır. Lakin A.Blok elə qısa müddət ərzində də ölməz poeziyası ilə öz adını əbədiləşdirmişdir. Şairin yaşadığı dövr istər Rusiya, istər dünya üçün dərin ictimai toqquşmalar, ziddiyyətlər, ardı-arası kəsilməyən sinfi döyüşlər və ən nəhayət, yer kürəsinin böyük bir hissəsində kapitalizm cəmiyyətinin sosializm quruluşu ilə əvəz olunması dövrü olmuşdur. Hər bir böyük sənətkar "dövrünün ayinəsi" olduğu kimi Aleksandr Blok da öz yaşadığı zamanın diktəsi ilə yazıb yaratmış, onun həyəcanlarını, qayğı və təlatümlərini şeirlərində əks etdirmişdir. Bu elə bir dövr idi ki, köhnə çar Rusiyası onun burjua-mülkədar sinfi son günlərini yaşayır, ölümün pəncəsində çırpınırdı. Bu elə bir dövr idi ki, Rusiyanın bətnində inqilab yetişirdi. Blok yazırdı:

Hamımız istəsək, istəməsək də,
Bu böyük illərin şahidləriyik.

Amma həqiqət naminə onu da deməliyik ki, A.Blok inqilaba, onun fütuhatlarına birdən-birə gəlib çıxmadı, ziddiyyətli dünyagörüşü, idealist fikirləri ilk vaxtlar ona xeyli mane oldu, bəzən səhv etdi, hadisələrin mahiyyətini dərindən başa düşmədi. Lakin əsil sənətkar kimi o həmişə irəliyə, gələcəyə baxmağa çalışdı. Hiss etdi ki, təzə zaman başlayır, özü də elə bir zaman ki, dünyanın simasını, yaşamağın mənasını dəyişəcəkdir.

A.Blok öz mənşəyi etibarilə ziyalı-zadəgan ailəsinə mənsubdur. Onun ata-baba nəslində neçə-neçə alim və peşəkar ədəbiyyatçı yetişmişdi. Şairin atası hüquq və fəlsəfə professoru, babası görkəmli botanika alimi, anası, nənəsi, xalası yazıçı və tərcüməçi olmuşlar, həyat yoldaşı isə dahi rus alimi D.İ.Mendeleyevin qızı idi. Uşaqlıq illərində A.Blok ədəbi aləmdə yaşamış, rus ədəbiyyatının böyük ənənələrinə dərin hörmətlə yanaşmış, Jukovskinin, Fetin, Polonskinin yaradıcılığına xüsusi rəğbət bəsləmişdir. O, gimnaziyanı bitirəndən sonra universitetin hüquq fakültəsinə daxil olmuş, bir müddət sonra tarixi-filologiya fakültəsinə dəyişilmiş, qədim fəlsəfə və filologiya, xüsusən də teatra meyil göstərmiş, hətta artist olmaq arzusuyla yaşamışdır. Lakin bu zahirən belə idi. Gənc Blokun köksündə fırtına ilə dolu böyük bir şair ürəyi döyünürdü. Doğrudur, ilk qələm təcrübələri real həyat hadisələrinə əsaslanmayan, romantik və mistik şeirlərdən ibarət idi. O zaman Blok rus həyatında baş verən təlatümlü hadisələrə bir qədər laqeydlik göstərir, hər şeyi kənardan seyrçi kimi izləyir, mücərrədçiliyə aludə olurdu. Lakin illər keçdikcə həyat təcrübəsi artdı, ətrafda baş verən hadisələrə açıq gözlə baxmağa başladı, onun üçün çox şeylər aydınlaşdı, tənhalıqdan, mistikadan uzaqlaşdı.



1904-cü ildə onun "Gözəl qadın haqqında şeirlər" məcmuəsi nəşr edilir. 1905-ci il inqilabı isə A.Blokun varlığında böyük bir təlatüm törədir, şair inqilabın səsinə qulaq asır. (Axı A.Blok o zamanlar Peterburqun fəhlə rayonlarının birində yaşayırdı.) Təkcə onu demək kifayətdir ki, 1905-ci ilin oktyabr günlərində A.Blok özü inqilabi nümayişlərin önündə qızıl bayraqla addımlamışdır. Şübhəsiz ki, Blokun inqilabi meyillərini şişirtmək də olmaz. Onun üçün inqilab romantik bir xəyal idi və bu inqilabın "böyük gəmiləri" talesiz adamlara təsadüfi sevinc-şadlıq daşıyırdı. Bununla belə şair artıq zəhmətkeş xalqın əzablı günlərini, kütləni aldadan və ona zülm edən şarlatanların əsil yırtıcı simasını aydın görürdü. Onun burjuylara qarşı kin-küdurəti get-gedə güclənir, əsil həqiqəti başa düşür, yaradıcılığında vətəndaşlıq motivləri artırdı. Bu vaxt o özünün "Alov və zülmət andı" silsiləsini yaradır. Həmin silsilənin ilk şeri şairin həyata yeni baxışının gözəl ifadəsidir:

Bahardır, yenə sonsuz, narahat,
Arzuları da sonsuz sayıram.
Qəbul edirəm səni, ey həyat,
Qalxan səsiylə salamlayıram.

1907-1908-ci illər şair üçün ictimai bədii ideallarının tam yeniləşmə illəri oldu. O, tənhalıqdan uzaqlaşdı, xalq həyatına, ictimai aləmə tamamilə yaxınlaşdı. "Sənətkar yalnız əsil həyatın ahəngi ilə, ab-havası ilə yaşaya bilər", – deyən Blok başa düşdü ki, xalqdan kənarda sənət, ədəbiyyat yoxdur. "Dahi hər şeydən əvvəl xəlqi olmalıdır". O bu sözlərlə ilk növbədə "sənət – sənət üçündür" deyə bağıran boşboğazlara, yalançı estetlərə cavab verirdi.

Əsərlərində həyat, tarix, insan, Rusiya, inqilab kimi qlobal mövzuların, nəhəng ictimai ideallların yüksək bədii həlli A.Bloku XX əsrin dahi sənətkarlarından biri kimi tanıtdı. Zərif lirika, öldürücü satira, yüksək vətəndaşlıq motivləri... şairin bütün yaradıcılıq yolunu əks etdirən əsas xüsusiyyətlərdir. A.Blok ilk növbədə lirik şairdir. Onun lirikası, tərcümeyi-halı, həyat yolunun salnaməsidir. Şairin lirikasında müəllifin istək və arzuları, ümidsiz xəyalları, büdrəmələri, yüksəlişləri, enmələri, qələbə və zəfərləri öz bədii əksini tapmışdır. A.Blok lirikasında məhəbbətin gücü, ülviliyi, burjua dünyasının puçluğu, insan qüdrətinin sonsuzluğu, səadət uğrunda mübarizə motivləri, sərt və ağır həyatın böyüklüyü, doğma Rusiyanın ağrı-acıları, sabaha bəslədiyi ümidlər, inqilabın təlatümləri və sair məsələlər qələmə alınır. Şübhəsiz ki, bu mövzulardan ən

başlıcası A.Blok üçün doğma vətən mövzusu – Rusiya mövzusudur. Onun üçün *Rusiya yeganə ümid mənbəyi, zülmət dünyasında yeganə işıqdır.* Onun üçün Rusiya arxa, kömək, inam və əqidədir. Rusiya ilə bütün mümkün olmayan şeylər mümkündür, bütün müşküllər açılır, uzaq yollar yaxınlaşır. "Rusiya fırtınadır" deyən şair şübhəsiz ki, vətəninin gələcək inqilabi fırtınalarını nəzərdə tuturdu.

Şairin yaradıcılığının ikinci, ən bariz mövzularından biri mənəvi azadlıq mövzusudur. Şair insanda olan hər cür süstlüyə, özündən razılığa, meşşan əhvali-ruhiyyəyə, xırda, cılız mənəmlik duyğularına qarşı üsyan edir. "Sən təsadüfi halları yolundan götürsən, görəcəksən ki, dünya gözəldir" və ya "Döyüş əbədidir, rahatlıq yoxdur" deyən Blok insanları mənəvi gözəlliklər uğrunda döyüşlərə səsləyirdi. Şair istər poeziyasında, istərsə də, həyatda yüngül, səthi düşüncələrə, dünyaya üzdən baxanlara qarşı dururdu.

İqilabi motivlər A.Blokun bütün yaradıcılığından qızıl bir xətlə keçir. O, Oktyabr inqilabını əsil mənəvi təmizləyici bir fırtına kimi qiymətləndirirdi və buna özünün ən ölməz əsərini – "Onikilər" poemasını həsr etdi. Sonra isə *Blok "Skiflər" əsərini, ehtiraslı "Ziyalı və inqilab" məqaləsini yazdı, "Onikilər"* poemasında o, Oktyabrın tarixi addımlarını şerin qüdrətli dili ilə təsvir edirdi:

İrəli dur, irəli bax,  
Ey işçi xalq, işçi xalq!

Özünə, şeirlərinə, ümumən ədəbi yaradıcılığına qarşı tələbkar olan və tərif sevməyən A.Blok "Onikilər" poemasını yazandan sonra demişdir: "Mən bu gün dahiyəm". Doğrudan da A.Blok "Onikilər" poemasını yazmaqla bir daha ölməz və dahi sənətkar olduğunu tamamilə sübuta yetirdi.

Anadan olmasından yüz, ölümündən yarım əsrdən çox keçməsinə baxmayaraq A.Blok bu gün ən müasir, ən oxunan, ən sevilən bir sənətkardır. Onun şeirləri illər keçdikcə yeni-yeni mətləblər əxz edir, söz dühasının yeni-yeni çalarları açılır. Azərbaycan oxucuları A.Blokun yaradıcılığını həmişə maraqla oxuyub mütaliə etmişlər. Onun bir sıra əsərləri dilimizə tərcümə olunmuşdur... *İnanırıq ki, illər, əsrlər ötəcək, xalqlar, millətlər bundan sonra da rus* şerinin iftixarı A.Blokun mətin misralarını sevə-sevə oxuyacaq, onun solmaz-saralmaz sənətini nəsillərdən-nəsillərə əsil bir töhfə kimi çatdıracaqlar.

***Cabir Novruz***





* * *

Nur yaysın gecəyə ayın ziyası,
Sevincə qovuşsun həyatda hər kəs, –
Kədərli qəlbimdə məhəbbət yazı
Çiskinli havanı dəyişə bilməz.
Başımın üstündə qaranlıq gecə,
Qaranlıq gecənin cansız nəzəri...
Acılı, şirinli zəhərlər içən
Yaralı könlümə vardır bənzəri.
Səhər toranında məchul bir yerə
Gözləyib hissimi, gizləyib ehmal,
Gəzib dolaşıram izdiham içrə –
Könlümdə müqəddəs, əziz bir xəyal:
Nur yaysın gecəyə ayın ziyası,
Sevincə qovuşsun həyatda hər kəs, –
Kədərli qəlbimdə məhəbbət yazı
Çiskinli havanı dəyişə bilməz!

*Yanvar, 1898*
*S.Peterburq*

* * *

Elə ki əndişə, təlaş uyuyar,
Qaranlıq şəhəri gizlər özündə –
Göylərin nə qədər musiqisi var,
Nə qədər səs olar bu yer üzündə!

De, mənə neynəyər ömrün tufanı,
Güllərin mənimçün açıb yanırsa!
Neynəyər göz yaşı adi insanın,
Fəcrin üfüqləri alovlanırsa!

Ey yerə hökm edən, göyə hökm edən,
Qorxutmaz gözümü nə ölüm, nə qan –
Son şövqün köpüklü qədəhini sən
Qəbul et şərəfsiz, vecsiz qulundan!

*1898*

* * *

Dəniz kimi daima tufanlıdır bu həyat,
Gəmiləri necə də silkələyir gur tufan.
Zülmət çöksə, ayıq ol – açıb dərhal qol-qanad,
Xilas lövbəri axtar – axtarsan tapacaqsan.
Görsən sonu görünmür bu qaranlıq gecənin,
Görsən yolu azmısan, qorxu var, təhlükə var –
Atıl soyuq sulara, unudub düşüncəni,
Qoy gəmi batsın... səni çıxaracaq dalğalar!

*30 oktyabr 1898*

## YAĞIŞDAN SONRA

Yağış yasəmənləri döyüb yatırıb yerə...
Susub bülbülün səsi;
Ancaq susmaq bilməyir qoşulub gur sellərə
Kiçik çayın nərəsi...

Şəfəqlərlə öpüşüb dirçəldikcə təbiət,
Dirçələcək gül-çiçək.
Rayihəli bağımda şirin avazla, əlbət,
Quşlar yenə dinəcək...

*1 iyul 1899*



* * *

Yadındamı küylü şəhər,
Uzaqdakı o mavi sis?
Yolumuzu azıb səhər
Yeriyirdik sakit, səssiz...

Ay ucalıb nurlanırdı
Biz gedirdik addım-addım.
Düzdü, yoldan xoflanırdım
Amma geri qayıtmadım.

Başımızı qatdı cığır
Aldandımı ilk eşqimiz –
Ürəyimə çökdü axır
Gördüyümüz o mavi sis.

Yadındamı küylü şəhər,
Uzaqdakı o mavi sis?
Yolumuzu alıb səhər
Başılovlu getdiyimiz...

*23 avqust 1899*

* * *

Uzaqdan əsib külək
Gətirdi yaz nəfəsi.
Açıldı çiçək-çiçək
Bir parça göy qübbəsi!

Dibsiz mavilik duyar
Yaxınlaşan baharı.
Ulduzlar yatar, doyar,
Ağlar qış tufanları.

Tellərim sızlar yenə
Duyub qəm-kədərini,
Külək gətirdi mənə
Sənin nəğmələrini.

*29 yanvar 1901*

* * *

Kimsə pıçıldayır, qəhqəhə çəkir,
Mavi, gümüş rəngli duman içindən.
Sükutda qəlbimə kədər, qəm çökür,
Səs gəlir mehriban məkan içindən.

Yenə də pıçıltı... bu incə səsdə
Kiminsə qayğısı şirin yuxudur.
Qadınlara məxsus zərif nəfəsdə
Əbədi sevincim bir xoş duyğudur.

Əzizim, pıçılda, sevin, gül, şadlan,
Sən ey mehribanım, ey zərif yuxum.
Təzə qüvvə ilə ucal, qanadlan,
Mənim din-imanım, mənim var-yoxum!

*20 may 1901*

* * *

Səhər... duman... oyandım,
Nur səpdi gün hər yana.
Sən ey istəkli yarım,
Çıxdın bizim eyvana.

Darvazalar açılmış,
Küləklər ətir səpər.
Çoxdandır oxunmamış,
Bu cürə şən nəğmələr.



Səhər büründü çənə,
Nur səpdi gün hər yana.
Onlarla yarım yenə,
Çıxdı bizim eyvana.

*3 oktyabr 1901*

## FAL AÇMAQ

Güclüyəm, uluyam fal açmağımla
Di gəl ki, izləyə bilmirəm səni.
Ardınca göylərə yol açmağımla,
Gəzməyin bir olur yerdə çəməni.
Xəyalən göylərdən çəmənə ensən,
Qüruba qovuşub itərsən gözdən,
Məni qandallayan zəncirlərinsə
Tənha cingiltisi qalır yer üstə.
Amma falçılığım getməyib heçə
Kədərli, dəhşətli olsa da "dünən",
Dan yeri həm şövqlə, həm də gizlicə
Al rəngə boyanıb bu gün səhərdən.
Yanan buludlarda səni görürəm,
Gizlənib baxırsan bilə-bilə sən.
Bura gələcəksən qayıdıb bu dəm
Çırpına-çırpına, gülə-gülə sən.

*5 dekabr 1901*

* * *

Tez-tez görüşərdik qürub çağında,
Avarla körfəzi yarı bölərdin.
Bəyaz paltarına vurulub onda,
Özgə zərifliyi yersiz bilərdim.

Qəribə olardı səssiz görüşlər,
Qumlu sahildəcə şamlar yanardı.

Dənizdən sahilə dönənə qədər
Bir solğun gözəllik xatırlanardı.

Yaxın yaxınlığa, yanğılı hissə
Mavi sakitlik yer qıymayıb hələ,
Axşamlar qarışıb dumana, sisə
Gələrdik qarğılı, sakit sahilə.

Kədərlər, sevinclər, umu-küsülər,
Körfəzi böldüyün o qızıl avar,
Sənin ağ qamətin, yasdakı səslər
Solub yox oldular, uzaqlaşdılar...

*13 may 1902*

* * *

Vurğunam, aşiqəm, gəncəm, cavanam,
Qəlbimdə həm arzu, həm hicran, həm qəm.
Bir yaşıl, sehirli ağcaqayınam,
Elə sənə sarı əyiləcəyəm.

Külək yarpaqların keçər üstündən,
Titrər yalvarışdan ağacın kökü.
Sənin ulduzlara baxan gözündən,
Ətirli göz yaşı axar zər kimi.

Tez-tez göy çadıra durub gələrsən,
Yuxulu günlərdə, solğun günlərdə.
Baxaram mehriban libasına mən,
Susaram heyrətli düşüncələrdə.

Sən, mənə vurğunsan, mən sənə vurğun,
Sehirli gününəm, sirli ayınam.
Səninlə bilmirəm nə qəm, nə qorxu,
Səninlə bir yaşıl ağcaqayınam.

*31 iyul 1902*



* * *

Önündə qızıl dərə,
Yol gedirsən piyada.
Bu durnalı göylərə,
Havalanır səs-səda.

Üfüqlərdə havatək,
Qəmli səs donub qalıb.
Tor hörən bir hörümçək,
Budağa qonub qalıb.

Gün, içindən dumanın
Əskiltmir zərrəsini.
Boş qalan bir binanın,
Döyür pəncərəsini.

Payız səpər qızıl zər,
Bəzəyər təbiəti.
Uçub gedər ümidlər,
Soyumaz hərarəti.

*29 avqust 1902*

* * *

Nəğməli bir yuxu, çiçək açan gül,
Öləziyən işıq, ötüb gedən gün.

Açdım pəncərəni, gördüm yasəmən,
Qalmışdı bahardan, ötən bir gündən.

Nəfəs aldı güllər... sakit, ahəstə,
Kölgələr dolaşdı pəncərə üstə.

Qəlbimdə kədərlə, gözümdə yaşla,
Örtdüm pəncərəni titrək təlaşla!

Bənzədi nəfəsi yaza, payıza,
Gəldi asta-asta astanamıza!

*Sentyabr, dekabr, 1902*

* * *

Səninlə görüşdən qorxuram yaman,
Daha dəhşətlidir görüşməməksə.
Heyrətdən şaşıram baxdığım zaman
Hər şeydə əksini görürəm nəsə.

Qəribə kölgələr keçir küçədən,
Bilmirəm – yaşayır, yatır bu aləm?
Kilsə divarına qısılaraq mən,
Qorxudan geriyə baxa bilmirəm.

Elə bil tükənir iqtidarım da,
Kim isə əl qoyur çiyinlərimə.
Səslər cingildəyir qulaqlarımda,
Qaytarıb fikrimi dəfn yerinə.

Qara, tutqun səma enib anbaan
Yerdə məbədi də örtür axırda.
Sən isə burdasan. Lap yaxındasan,
Yox, yox! Burda yoxsan. Ordasan, orda!

*5 noyabr 1902*

* * *

Binalar çoxalır arzular təkin –
Amma dön, nəzər sal geriyə birdən.
Qapqara üfunət boylanır yəqin,
Ağ evlər gördüyün dünənki yerdən.

Beləcə dəyişib hər şey yerini,
Gizlicə yox olur göyə çıxaraq.
Orfey, itirəndə öz dilbərini,
Sənə kim söylədi: "Boylan, geri bax?!"

Keçirib başıma dümağ ləçəyi,
Qışqırıb gur çaya atılaram mən.
Səadət ətirli bir çay çiçəyi
Meyitim üstündə titrəyər hökmən.

*5 noyabr 1902*



## OFELİYANIN NƏĞMƏSİ

O çox vədlər pıçıldadı dünən mənə,
Çox mətləblər pıçıldadı dünən mənə.
Sonra getdi tək, pərişan yollar ilə,
Unutmuşam o dəhşətli söhbətləri,
O sözləri, o vədləri...

Bunlar təzə olmuş idi, ya ki çoxdan,
Sonra durub sükut etdi zaman-zaman.
Ha axtardım tapılmadı zanbaqlarım,
Necə oldu o pərişan söyüdlərim,
Gözüyaşlı, qəlbi şan-şan söyüdlərim?

Yadımdadır mavi dəniz, sahili zər...
Məni şirin dillər ilə öpürdülər...
Ah, görəsən, necə bilim, bizdən sonra
O mirvari sahillər nə pıçıldadı,
O fəsillər, o illər nə pıçıldadı?!
Sahillər nə pıçıldadı?!

Hər dastanda, hər nağılda o görünür,
Doğma, qorxunc baxışları baxıb gülür,
Elə həmin cığır ilə yeriyir o,
O dünənki tənha, uzaq cığır ilə,
Sinəsi ağ cığır ilə.

Tənha ömür eləyirəm, çöl həmdəmim,
Bundan belə nə qayğım var, nə də qəmim.
Bunlar təzə olmuş idi, ya da çoxdan,
Mavi dəniz səslənirdi, sahili zər...
Məni şirin dillər ilə öpürdülər.

*23 noyabr 1902*

* * *

*Andrey Belıya*

Düz bir il əsmədi pəncərə zağ-zağ
Kimsəsiz-kimsəsiz susdu daş-divar.
Hər şey unuduldu, yox oldu, ancaq
Bir sabah açıldı ağır qapılar.

Tələsik xaç çəkdi ellər yığışıb,
Qalxdı çiyinlərə gümüşü tabut.
Bir qoca qarı da məndən yapışıb
Yeridi əsərək – könlündə bulud.

Laqeyd üzlərlə ətraf dolurdu,
Yığışıb gəlmişdi yetik qonşular.
Tapdanıb axırda çirkab olurdu,
Ayaqlar altında tərtəmizcə qar.

O tabut dustağı gör nə eşitdi
Qarlı yatağına uzanan zaman:
Göylərə qaldırıb gərənayını
Şivən qoparırdı uzaqda tufan.

*6 yanvar 1903*

* * *

Külək göyəmlikdə qurub əndişə,
Könlümtək titrəyir pəncərədə şam.
Məni tənha qoyub getdin görüşə,
Susub, ürəyimdə bağışlamışam.

Xəbərin yoxdur ki, aldadıb aşnan
Yerindən, yurdundan edəcək səni.
Oğurluq görüşdən qayıdan zaman
Göyəm tikanları didəcək səni.



Çoxdan inanmışdım tale deyənə –
Pəncərə önündə gözləyəcəyəm.
Sən onun qoynunda yatsan da, yenə
Bu sirri hamıdan gizləyəcəyəm.

Qəlbini çuğlayan qatı duman da
Mənim sükutumda aydınlaşacaq.
Aşnan doyub səndən səni atanda
Mənə açacaqsan dərdini ancaq.

*20 fevral 1903*

* * *

Bu dünyadan o dünyaya köç edən zaman,
Təhqirlərdən, təriflərdən uzaqlaşanda.
O yuxunu, zərifliyi xatırlayarsan,
Bil onlarla nəfəs aldım mən bu cahanda.
Xatırlayan deyilsən heç, nurlu qəzəbsən,
Çağlayarsan ürəyimin qaynar yerində.
Ağ sonasan hey başımın üstə gəzərsən,
Hey üzərsən taleyimin dənizlərində.
Alnıma bu yazılıbdır görünür mənim,
Ömür ötdü, illər keçdi, aylar yoruldu.
Soyuq bulud çaşbaş saldı günümü mənim,
Sənin günün mənimkindən işıqlı oldu.
Xatırlarsan mən dünyadan itəndə bir gün,
Xatırlarsan o sehirli nəğməni bəlkə;
Bir nəğmə ki, rəmzi idi taleyimizin,
Bir nəğmə ki, oxuyardıq mənimlə birgə.

*1 noyabr 1903*

* * *

Günlər ötdü,
Ömür getdi.
Bu sahilə,
Biz gələrdik
Qibtə ilə.

Yaz çağı buz
əriyərdi...
Keçən günlər
Unuduldu
Vədə gəldi.

Yorğun, vurğun,
Durub səni
Səsləyirəm.
Soyuq buzam,
Mən ərimək
İstəyirəm.

*1903*

* * *

Qışın qasırğalı, tufanlı çağı
Çətindir gecələr rahatca yatmaq...
Bizdə güc vardımı buzlu torpağı,
Dəmir kotanlarla əkib oyadaq!

Yayın əvvəlində şehli səhərlər
Çıxarıq çöllərə – gəzinək deyə...
Başlarıq xartaxart kərəntilərlə,
Şirəli otları biçib tökməyə!



Ağır qapıları açın həyətə!
Döysün pəncərəmi külək də artıq!
Bəxtiyar nəğmələr dinsin yenə də,
Çoxdandır, heç belə oxumamışıq!

*5 noyabr 1904*

* * *

Ömrün gəmisi
Durdu dayazda.
Səs-küy ucalıb
Artdı bir az da.
Bürüdü çayı
Mahnı, həyəcan.
Çıxdı irəli
Güclü bir cavan.
Qurub yelkəni,
Burub sükanı,
Qarmağı çəkib
Çıxardı yerdən.
Gəmi səmtini
Dəyişdi birdən.
Üzüb yönünü
Dərinə saldı.
Əlvan binalar
Arxada qaldı.
Odur üzürlər
Şən və bəxtiyar.
Ancaq ki, bizi
Aparmaz onlar,
Aparmaz, düzü!

*Dekabr, 1904*

* * *

Kilsə xorunda oxuyurdu qız,
Mahnı deyirdi gedənlərdən o.
Gəmiyə minib səssiz-səmirsiz
Uzaq üfüqdə itənlərdən o.

Səsi dəyirdi qübbəyə dərhal,
Ağ çiyinləri işıqlanırdı.
Qara zülmətdən durub baxanlar,
Onu nur dolu ümid sanırdı.

Düşünürdülər sevinc olacaq,
Körfəzlərdədir itən gəmilər.
Qərib yerlərdə olanlar ancaq,
Tamam xoşbəxtdir, tamam bəxtəvər.

Qız oxuyurdu, qız çağlayırdı,
Səsi şirindi, səsi kövrəkdi.
Çöldə bir uşaq hey ağlayırdı,
Yox, heç kəs geri dönməyəcəkdi.

*Avqust, 1905*

* * *

Yavaşıdı nurlu külək,
Boz bir axşam çökdü yerə.
Küknar üstə qonan qarğa,
Dəydi uyğulu tellərə.

Qərib, zülmət bir diyarda
Məni yada salırsanmı?
Eşqim üçün yuxularda
Heç narahat olursanmı?

Qəlbin tez-tez dəyişsə də,
Dəyişməzdir heç bir vədə



Sənin o gənclik vüqarın,
Mənim qadın etibarım.

Qovma, gəlib yan keçəndə,
Yüngül, adi kabusu sən,
Sidq ürəkdən sevsən belə
Tamam başqa bir qızı sən.

Qaranquşlar yavaşıyıb,
Uçur indi lap alçaqdan.
Gecə baxır gözlərinə,
Yaxınlaşır güclü tufan.

*21 avqust 1905*

## MİTİNQ

Müdrik danışırdı natiq kürsüdə,
Sözünü bir az da kəskin deyirdi.
Tutqun bəbəyinin gizli hirsi də,
Soyuq izdihama od çiləyirdi.

Aşağıda isə – güdüb fürsəti –
Min-min göz zilləyib baxırdı ona.
O heç nə duymurdu, duymurdu qəti:
Məqamı yetişib – az qalıb sona.

Əlini-qolunu ölçüb eləmir,
Amma ki, səsindən titrəyirdi göy.
Odlu sözlərinin ahəngiylə bir,
Şəvə saqqalı da təpənirdi hey.

Üzü bozarmışdı göy qübbəsi tək,
Hər şeyin yerini yaxşı bilirdi.
Dərdli azadlığın zəncir səsi tək
Səslənib, gurlayıb cuşa gəlirdi.

Lakin aşağıda susub duranlar,
Dərk edə bilmirdi rəqəmi, adı.
Dərk edə bilmirdi, bilmirdi onlar
Kimdi zəhərləyən dadlı həyatı.

Narazı-narazı ucaldı bir əl,
İşıqlar üşüdü tir-tir əsərək.
Bir atəş açılıb dindi əlbəəl,
Uçan bir kösöyün fışıltısıtək.

Elə bil zülmətdən süzüldü işıq,
Elə bil verildi işarə, eyham...
Bir fit fıyıldadı qorxu qarışıq,
Yuxudan ayıldı sanki izdiham.

Sınmış şüşələrin cingiltisinə
İnilti qarışdı, nalə qarışdı.
Burda ara verib natiq səsinə,
Əzik kəlləsiylə mayallaq aşdı.

İzdiham içində bilmədim ona,
Daş atan kim oldu, nə idi adı.
Bircə onu gördüm: fışqıran qanı
Dirəyi qırmızı qana boyadı.

Küylü izdihamın harayı, fiti
Göylərə dirəndi yanında onun.
Uzanıb əbədi susmuşdu natiq
Giriş qapısında böyük salonun...

Giriş qapısında yanınca işıq,
Çoxaldı çıraqlar qətil yerində...
Bir azdan qübbəni titrədib artıq
Dindi tüfənglərin tətikləri də.

Ötəri işıqda göründü meyit,
Göründü heyrətdən saralmış üzlər.



Bir də tüfəngini azacıq əyib,
Qəm-kədər içində dayanan əsgər.

Üzünü, gözünü yanaqlarını
Solğun göstərirdi şəvə saqqalı.
Əsgərlər dövrəyə aldılar onu,
Sıxıb dişlərində dərdi-məlalı.

Qəfildən yaranan sükut içində,
Ölü çöhrəsinin nuru var idi.
Bu qoca dünyadan vaxtsız köçən də,
Elə bil əbədi bəxtiyar idi.

Sakit nə ciddiydi açıq gözləri,
Daha bundan sonra nə qəm, nə kədər.
Keşikdə durmuşdu bayaqdan bəri,
Par-par parıldayan zağlı süngülər.

Sığınıb salonun astanasında
Qara lülələrin dövrəsinə o,
Sanki azadlığın tər havasından
İnamla çəkmişdi sinəsinə o.

*10 oktyabr 1905*

## HARINLAR

Boğaza yığıbdır məni harınlar;
Duyğudan azaddır daş ürəkləri.
Bir an yaşamayıb o piyqarınlar –
Xiffətdən əziblər tər çiçəkləri.

Budur kübarların süst qonaqlığı:
Xanımlar, qarılar, badələr səf-səf...
Sönür otaqların büllur çırağı,
Zülmətə qarq olur qəfil hər tərəf.

Tez şam yandırırlar, niyə – bilmirəm,
Sapsarı çevrələr qonur üzlərə.
Ütülü sağlıqlar artır dəmadəm,
Ağıl işlətmirlər amma bir kərə.

Narazı yaşayır harınlar hər vaxt,
Hörmətli qarınlar qərq olur qəmə:
Axı ağzı üstə dönəndə tabaq,
Çürük pəyələrdən ümid gözləmə!

Sönür yavaş-yavaş şamın şöləsi,
Onların bəxtinə, görün, nə düşüb:
Didir qulaqları acların səsi,
*Bir də bayraqların qızıl gülüşü!*

Beləcə ömr etsin, bizə nə var ki,
Kim istər onlara ölüm diləsin?
Amma cavanlara eyib olar ki,
Süstlərin yolunu təkrar eləsin.

*10 oktyabr 1905*

## GECƏ BƏNÖVŞƏSİ

*(yuxu)*

Keçdi ötəri günlər,
Etinasız gecələr.
Amma xatirimdədir hələ
Sizə danışmaq istədiyim
Yuxumdakı vaqiələr.
Şəhər kənarındayam axşam,
Çiləməyə başlayanda yağış.
Uzaqda, lap uzaqda – həmşəhərlilərimin
Fikrini, əməlini
Gizləməkdən yorulan səmanın
Bataqlığa düşdüyü yerdə –
Bir şəfəq zolağı qızarırdı.



Tərk edib şəhəri,
Gedirdim yavaş-yavaş;
Evləri seyrək küçə boyunca.
Dostum da mənimləydi, deyəsən.
Yanımca yerisə də,
Susurdu bütün yolu.
Mənə görəmi susurdu,
Özümü bikef idi, bilmirəm,
Amma bir-birimizə yad kimi
Müxtəlif şeylər görürdük hərəmiz:
O, içində cavan və daz frantların
Ənnik-kirşanlı xanımları qucaqladığı
Faytonları görürdü.
Pəncərələrdə,
Sarı məxmər arxasından
Boylanan qızlar da
Qaçmırdı nəzərindən...
Amma hər şey soldu, qaraldı,
Yoldaşımın gözləri də – eləcə;
Deyəsən, başqa arzular
Güc gəlmişdi ona,
Kartuzunu gözünə basıb,
Burulub tini,
Məni tək qoyub gedəndə
Yaman könlümdən oldu;
Axı yaxşı dostları itirməkdən savayı
Dadlı nə var dünyada?
Azaldıqca ötüb keçənlər
Təkcə arıq köpəklər çıxırdı rastıma,
Təkcə sərxoş arvadlar söyüşürdü uzaqda.
Kələm, ağcaqayın, bədmüşk kolları
Görünürdü rütubətli düzənlikdə,
Bir də bataqlıq qoxusu gəlirdi.

Ağlım başıma gəldikdə,
Susub tükəndikcə addımlar, səslər,
Müxtəlif dini söhbətlər,
Sətir haqqı, qayğısı –
Açıq-aşkar aydın oldu ki,

Nə vaxtsa mən bu yerdə olmuşam,
Bu yuxuda gördüklərimi də
Görmüşəm oyaqlıqda.

Enişə əyildi yol,
Görünməz oldu tikililər
Qarşıdakı bataqlıqda,
Durğun, kifli su üstündən
Körpücüklər salınmışdı
Dikdirdən dikdirə;
Yaşıl-bənövşəyi toranlıqdan
Bir cığır da
Burula-burula keçib gedirdi
Yuxuya, mürgüyə, tənbəlliyə.
Sanki keşikdə dayanıb,
Məqam güdürdü hava
Boz dikdirin üstündə də,
Qırmızı şəfəq zolağının altında da,
Məqam güdürdü ki, görsün
Necə çiçəklənir
Su və hava şırnaqlarının
Zərif qızı.
Onunçun də hər şey
Susub gözləyirdi təmtəraqlı görüşü:
Axı heç kəs, heç vədə
Nə valideynlərindən eşidib,
Nə məktəb müəllimlərindən,
Nə də bir kitabda oxuyub ki,
Səslənəndə fabrik fitləri,
Yaxşı-yamanlıq uyğusuna
dalanda adamlar,
Yaxın, qohum duyğular aşıb-daşanda,
Bitib-tükənməyəndə
Mədə pozğunluğu və ya
Yenə nazirlər şurası barədə
Öz düşgünlüyünü gizlətmədən,
Uyub sürüşkən yola,
Tozlu, cadar-cadar şəkillərdə
Həyasız bir təvazöylə



Gözlərin içinə dik baxan bizlərdən
Ən yaxşımız lənətlənəndə –
Belə bir təhqiranə vaxtda
Paytaxtdan bir az aralı
Boş və sakit bataqlıqda
Xəyal görünə bilər hər kəsin gözünə.
Ey bu sətirləri sevgi və ya nifrətlə
oxuyan,
Sənin kimi bir kəs də,
Mənim kimi bir avara da
Görə bilər
Adına Gecə Bənövşəsi deyilən
Yaşıl – bənövşəyi, sakit, təmiz
Zərif bir çiçəyi.

Bunları bilə-bilə
Bataqlığı keçərkən
Yağış toru arasından
Kiçik bir koma gördüm.
Hara gəldiyimi anşarmadan
Açıb ağır qapını
Dayandım kandarda şaşqın-şaşqın.

Alçaq komalar boyu
Kələ-kötür skamyalar düzülmüşdü.
Onların birində –
Uzun mizin qabağında –
Çirkin bənizli bir qız
Başını sallayaraq
Nəsə toxuyurdu sakit-sakit.
Bilmirəm, cavan idi, ya qoca,
Nə rəngdəydi saçları,
Nə rəngdəydi gözləri,
Nə rəngdəydi qaşları.
Onu bilirəm ki, sakitcə nəsə toxuyurdu,
Sonra ayrılıb işindən,
Xeyli müddət oturdu
Qayğısız, düşüncəsiz.
Bir də onu bilirəm ki,

Haçansa görmüşdüm onu;
Həm də o vaxt daha gözəl,
Daha qamətli, daha gənc idi.
Bir də onu bilirəm ki, nə vaxtsa
Saçlarına dən düşmüş şahlar
Onun ayaqlarına döşənib
Ağlayırmışlar için-için.

Yaxşı yadımdadır ki,
Arxamda
Bataqlıq mürgüsü yağdığıyçün,
Havaya, açılan Gecə Bənövşəsinin
Rayihəsi hopduğuyçün,
Bir də o axşam bayramına mən
Bəylik paltarında gəlmədiyimçün
Şirin bihuşdarı qoxusu gəlirdi
Həmin alçaq komadan.
Mən gecə restoranlarının müştərisi,
Ac bir avara idim.
Komayasa şahlar yığışmışdı;
Amma yadımda yaxşı qalıb ki,
Haçansa mən də onların arasında
olmuşam,
Dodaqlarımla toxunmuşam onların
badələrinə

Hardansa qayalar içində;
O yerlərdə ki, indi nə torpaq var,
Nə dəniz,
Yalnız qarlı toranlıqda hərdən
Skandinaviya hökmdarlarının
Qızıl tacları parlayır orda.

Yenidən qızıl taclara
Baş əymək ağır gəlirdi mənə,
Gözləyə-gözləyə qaldılar elə,.
Kədərli bir qəhqəhə çəkdi könlüm
Onların bu gecikmiş istəyinə.



Komanın yanından ötüb
Köhnə dostların əlini sıxdım,
Məni tanımadı onlar.
Nəhayət, iri bir çəllək arxasında
(Deyəsən, pivə çəlləyi idi.)
Ensiz bir skamyada oturmuş
Bir qoca, bir qarı gördüm.
Yaşıl, ulu saçlar üstə
Paslı taclar dəydi gözümə.
Neçə-neçə əsrlərdi
Gəlib gedənlərdən ehtiram umub –
Ehtiram göstərib
Oturmuşdu burda onlar.
Skamyalarda oturanların yanından ötüb
*Təzim göstərdim şahlara;*
Yorğun bir kölgə keçdi
Köhnə, dərin qırışlar üstən;
Öz köhnə ədalarıyla şahlar
Buyurdular ki, burda qalım.
Mənsə çevrilib gördüm
Ən qaranlıq guşədəki
Sonuncu skamyanı.
Həmin sınıq skamyada
Bir adam oturmuşdu süst;
Dirsəkləri dizlərində,
Əlləri də çənəsində.
Üz-gözündən görünürdü ki,
Qocalmadan, dəyişmədən,
Bir fikrin həsrətiylə
Neçə-neçə əsrdi
Elə xəyalə dalıb ki,
Əzaları ağac kimi bərkiyib.
Oturub indi də məhkum-məhkum
Eyni fikri xəyal edir;
Yanında – skamyanın üstündə də
Dopdolu pivə parçı.
Mən ona yaxınlaşanda
Nə başını qaldırdı,
Nə cavab verdi salamıma,

Nə də tərpətdi əlini.
Tutqun gözlərinin dərinliyinə
Baxanda anladım ki,
Bir vaxt mən də burda,
Bu qaranlıq güşədə
Oturacağam onun kimi;
Yanımda da dopdolu pivə parçı.
Mən də beləcə xəyal edəcəyəm,
Mən də beləcə qoyacağam əllərimi,
Mən də beləcə zilləyəcəyəm gözlərimi
Komanın uzaq küncünə –
Mürgü döyən ər-arvaddan,
Yuxuya getmiş dəstədən,
Toxucudan o yana, –
Titrək işıq altda
Unudulmuş ölkənin şahzadəsi –
Gecə Bənövşəsi əyləşən yerə.
Beləcə oturmuşdum komada,
Yanımda pivə parçı,
Bir də onun kədərli sahibi;
Başı yavaş-yavaş əyilib
Az qalırdı dizlərinə toxunsun.
Əlləri də tərpənmirdi heç,
Şaqqıldayan sümükləri
Sınıb töküləcəkdi sanki.
Mənim kimi dilənçi olan bu adam
Nəcib ailədən idi mənim tək.
Boylu-buxunlu, igid ər olub,
Şimal qızlarının sevimlisi,
Skandinaviya nağılları nəğməkarı...
Bu da paltarının qırıqları;
Qırmızı, solğun qızılla
Tikilmiş parçaların
Əlvan zolaqları.

O yandasa böyük skamyalarda
Oturmuş dəstəni görürdüm:
Kimisi yuxulu-yuxulu
Yapışmışdı qılıncın dəstəyindən;



Kimisi sipərinə, söykənmişdi
Skamya altda sancılmış
Uzundraz mahmızın;
Kimisi yerə salmışdı dəbilqəsini, –
Dəbilqənin yanında
Bomboz bozarmış torpaqdan
Boy göstərirdi solğun otlar;
Baharsız yaşamğa,
Qədimlik havası udmağa
Məhkum olunmuş otlar.
Dəstədən o yana, pivə çəlləyi yanında
Bir qocayla bir qarı əyləşmişdi;
Başlarındakı taclar közərirdi
Uzaq şəfəqin zərif zolağında
Nurlana-nurlana.
Yaşıl saçları tökülüb
Örtmüşdü dərin qırışlarını,
Qaşların kölgəsi altda qalan gözləri
Mürgüləyirdi bataqlıq gözləritək.

Onlardan o yana – şahanə bir qız
Nəsə, toxuyur, toxuyurdu hey,
Sallayaraq başını.
Bir şirin yuxuyla bihuş eyləyib bizi,
Bataqlıq damcısıyla sərxoş eyləyib bizi,
Gecə nağılıyla məftun eyləyib bizi,
Özü açılır, açılır, açılırdı hey.
Bataqlıq qoxuyurdu nəfəsi bənövşənin,
Səssizcə fırlanırdı çöhrəsi,
Toxuyur, toxuyur, toxuyurdu hey.

Donub qaldım, yatdım, qəmləndim.
Fikrimi, xəyalımı gizlətdim,
Şəfəq zolağına baxdım.
Bilmirəm, bir anmı keçdi,
Əsrlərmi ötüşdü.

Yuxuda səslər eşidirdim:
Divar arxasında qəhqəhəyə də
bənzəyirdi,

Uzaq-uzaq şappıltılara da,
Dalğaların kükrəməsinə də bənzəyirdi,
Yeni yurddan gələn səslərə də,
Qağayıların çığrışmasına da.
Hərdən elə bil boğuq zənglər inləyirdi,
Hərdən elə bil bərkiyən külək
Qovub gətirirdi gəmiləri,
Birdən Sevinc gəldi,
Kükrədi uzaq köpüklər,
Çiçəkləndi uzaq işıqlar.

Qonşum parç üstə əyilmişdi,
Şaqqıldadı əlləri.
Skamyaya dəydi başı,
Cingildəyib ovxalandı qılıncı,
Əlindən düşdü sipəri.
Dəbilqəsi altdan,
Bir siçan çıxıb qaçdı.
Qocayla qarı da skamyada
Söykənmişdilər bir-birinə.
Dünyagörmüş bişlarındakı
Şahlıq tacları da yox olmuşdu.

Bataqlıqda oturmuşdum.
Bataqlıq üzərində
Qocalmadan, dəyişmədən çiçəklənirdi
Gecə Bənövşəsi adlandırdığım
Bənövşəyi çiçəyim.

Bataqlıq arxasında qalmışdı şəhərim,
Axşam da həminkiydi, şəfəq də həminki.
Yəqin ki, dostum səntirləyə-səntirləyə
Neçə yol gəlib evimizə,
Məni söyüb, söyüb lənətləyərək
Getmişdi dərin bir yuxuya.

Amma neçə-neçə əsrlər gəlib keçdi,
Mən də çəkdim əsrlərin fikrini.
Dünyanın lap qurtaracağında



Uşaqlar kimi dayanmışam tənha,
müdrikcəsinə.

Həminki tək sakitdir qızaran göy tağı,
Həminki üzücü dünya qarşılayıb məni.
Gecə Bənövşəsi isə çiçək açır,
Nurlanır bənövşəyi ləçəyi.
Yaşıl nəvazişli zülmətdə eşidirəm
Dalğaların burulğan axarını,
Böyük gəmilərin yaxınlaşmasını –
Yeni bir torpaqdan gələn müjdə kimi.
Miras cəhrə elə əyirir ki,
Canlı və ötəri yuxunu,
Sevinc qəfildən gəlib
Olduğu tək qalacaq burda.

Gecə Bənövşəsiysə çiçəkləyir bir ucdan.

*18 noyabr 1905 – 6 may 1906*

* * *

Əziz qardaş! Düşür axşam,
Zənglər dinir aram-aram.
Göydən mürgü yağa-yağa,
Çölü, düzü tutdu ağa.

Süzüb gəldi – gözəl, göyçək,
Yeri oldu gözlər üstə.
Yüngülləşdi hər vaxtkıtək
Bizim ağır yükümüz də.

Meşə yolu cüt divardı;
Seyrək-seyrək ələndi qar.
Qarşıdakı semaforda
Yaşıllaşdı gur işıqlar.

Gün boylandı səmalarda,
Bənövşəyi oldu qar da.

Sanki yeni məkandayıq,
Sanki yeni zamandayıq.

Tənha bir quş qışqıraraq
Qanadıyla çırpdı şamı;
Kirpiyini boyayır ağ
Əlləndikcə qar adamın.

Qatar gedir asta-asta
Eşidilir ağır səsi...
İndi bizim qarşımızda
Görünəcək Fin körfəzi.

Görəcəksən bu dənizdə
Ürək necə yüngülləşir.
Görəcəksən yaşıl düzdə
Qürub edən al günəşi.

Qayıdanbaş xalça üstə,
Bir-birinə yanaşaraq,
Nə gördüksə çöldə, düzdə
Bacımıza danışarıq...

Kreslodan qalxıb bu dəm
Sakit-sakit, ciddi tərzdə
O deyir ki, etməyin qəm,
Hər yan qardı bütün ərzdə.

*13 yanvar 1906*

## YAD QADIN

Axşamlar restoran göylərindəki,
Hava isti olur, tüstülü olur.
Keflilər qışqırır vəhşilər təki,
Çığırtı, bağırtı ətrafa dolur.

Döngə-dalanlarda toz duman kimi,
Bağların üstünə hey lövbər salır.



Bulkaya gözləri sataşan kimi,
Uşaqlar ağlayıb fəryad qoparır.

Şlaqbaumların birbaş yanıyla,
Dünyanın işindən tamam bixəbər.
Papağı yan qoyub öz xanımıyla,
Dolaşır məzəli, kefli kişilər.

Göldən avar səsi yüksəlir bərk-bərk,
Qadın hay-harayı qalxır uzaqdan.
Göydə hər bir şeyə vərdiş edərək,
Laqeyd Ay fırlanır hey zaman-zaman.

Hər axşam yeganə dostum həyatda,
Durub qədəhimdən gözümə baxar.
Şərabın gücündən, sehrindən o da,
Elə mənim kimi sakit, məst, xumar...

Qonşu stollarda qəmli, mükəddər,
Yuxulu lakeylər kirpik çalarlar.
Keflilər, o dovşan gözlü keflilər,
"Həqiqət meydədir" – haray salarlar.

Hər axşam müəyyən saatda hökmən,
(Mənə belə gələr bəlkə nə bilim?!)
İpəyə bürünüb o zərif bədən,
Tutqun pəncərəmdən görünər mənim.

Bürünüb elə bil əfsanələrə,
Sanki keçmişlərdən qopub, üzülüb,
Başında şlyapa lələyi qara,
Kiçik barmağında qızıl üzüyü...

O mənə necə də mehriban gələr,
O qara duvaqda keçər gözümdən.
Görərəm əfsunlu o sahilləri,
Bir də ki, əfsunlu uzaqları mən.

Kor sirlər əbədi verilib mənə,
Kiminsə günəşi bəxş olunubdur.

Qəmli ürəyimin hər bir yerinə,
Şərab dəlib keçib, şərab dolubdur.

Qızıl quş əyilmiş qanadlarıyla,
Beynimdə hərlənir hər axşam, səhər.
Mavi, dibsiz gözlər öz odlarıyla,
Uzaq sahillərdə çiçəklənərlər.

Qəlbimdə xəzinə yatır neçə vaxt,
Kimindi, açarı məndədir yalnız...
Doğru buyurursan sən kefli axmaq,
Həqiqət meydədir, meydədir ancaq.

*24 aprel 1906*
*Ozerki*

## RUSİYA

Yuxuda da qiyamətsən,
Əl dəymərəm geyiminə.
Gözlərimə çimir getsə,
Düşüb sirlər düyümünə,
Sirr içində səni görrəm, –
Uyuyarsan birəm-birəm.

Keçilməzdi meşələrin,
Çaylar sənin ağ kəmərin;
Bataqlığın, durnaların,
Bulanıqgöz sehrkarın...

Millətlərin diyar-diyar
Gecə vaxtı sinə-sinə,
Dövrə vurub halaylanar
Yanan kəndlər şöləsinə...

Zəmilərdə falçıların
Ovsun edər, fala baxar.



Cadugarlar harın-harın
Şeytanlarla mazaqlaşar.

Sovurduqca külək qarı,
Örtər kasıb komaları;
Cavan qız da əldə bıçaq
Hədələyər dönük yarı.

Çolaq-molaq aşıb-daşar,
Yollar-izlər cılızlaşar.
Nalə çəkən qasırğa da
Keçmişləri salar yada...

O mürgüdə, bax beləcə
Göz önündən keçə-keçə,
Bəyan oldu mənə qəti,
Doğma elin səfaləti.

Ayaq döyüb qəbristana
Bir kədərli cığır açdım.
Sübhə qədər yana-yana
Nəğmə deyib, şeir qoşdum.

Heç bilmədim mən özüm də
O nəğməni kimə qoşdum.
Rəbbim kimdi yer üzündə,
Hansı qıza vurulmuşdum.

Bu canımı üzə-üzə,
Saldın məni dağa, düzə.
Bakirədir amma ürək,
Ey Rusiyam, əvvəlkitək.

Mürgüləsəm – mürgüdə sirr,
Sirr içində min bir sehir
Sanki udub Rusiyanı,
Lap uyudub Rusiyanı.

Fövqəladə bir qamətdi,
Yuxuda da qiyamətdi!
Düşüb sirlər düyümünə,
Əl vurmaram geyiminə.

*24 sentyabr 1906*

* * *

Gözəl şahzadə qız odlu, aramsız
Bahardan nəğmələr oxuyan zaman.
Mən ona söylədim: "Ey şahzadə qız,
Bil ki, mənim üçün ağlayacaqsan!"

Əlini çiynimə qoydu: "Ağ oğlan,
Səni qəlbim kimi hiss edərəm mən.
Götür qılıncını, döyüşə yollan,
Səni hər bəladan hifz edərəm mən.

Get, get qayıdarsan bir cavan kimi,
Həm də öz borcuna sədaqətinlə.
Mənsə büllur evə bir zindan kimi
Qapanaram buzlu məhəbbətimlə!

Mənim gözlərimdə sevinc də yanar,
İllər gəlib keçər, sönməz arzular,
Qala ətrafında ürəyin yanar,
Axar dərə boyu dupduru sular!

Gətirib gələndə ağır döyüşdən
Nizənin ucunda sən baharını,
Mən razı qalaram bu gec görüşdən,
Sənə uzadaram ağ qollarımı".

Üfüq par-par yanar mavi pərdəni
Qalanın, qüllənin üstə salınca.
Sağ ol, şahzadə qız, yola sal məni,
Gedirəm bir odlu bahar dalınca.

*Oktyabr, 1906*



## ÇARDAQDA

Görən, dünyada nə var
Nurlu çardaqdan hündür?
Lap uzaq meyxanalar
Mənə aydın görünür.

Ora gedən yol açıq,
Axı bu nəyə gərək?
Uzaqda zəif işıq,
Qapı bağlıdır bərk-bərk.

Nə eşidir, nə duyur,
Eşidir – lakin baxmır,
Nəfəs almır, uyuyur,
Onun səsi də çıxmır.

Yemək istəmir o qız,
Duymur qış küləyini,
Dinləyirəm aramsız
Çovğunun tütəyini.

Əs, külək! Titrəsin yer,
Qar səp, yetiş dadıma,
Yelpik düzəlt, gətir ver
Mənim gənc arvadıma.

Paltar gətir ver ona,
Olsun naxışı, zəri,
Gətir çarpayısına,
Gətir qar çiçəkləri!

Versən də bilə-bilə
Mənə dərdi, kədəri,
Barı ona bəxş elə
Şəfəq, inci, mirvari!

Elə gözəl geyinsin,
Seçilməsin o qardan,

Könlüm gülsün, sevinsin,
Baxım ona kənardan.

Əs, çovğun, nəğmə oxu,
Oxu, sükut içində,
Gülüm görsün bir yuxu
Buzlu tabut içində.

Qoy ayağa qalxmasın,
Qoy yatsın gözüm, canım,
İstəyirəm qorxmasın
Əzizim, mehribanım!

*Dekabr, 1906*

* * *

Məlul-məlul gəzirəm
Mağaramda tənha, tək.
Şarmançı da həyətdə
Oxuyur inləyərək...

Deyir nə bilim harda,
Qismət var, tale vardır.
Deyir çöldə yel əsir,
Həyətdəsə bahardır.

Eh, mənim nə vecimə?
Dolaşıram tənha, tək.
Kəfkir dinir divarda,
Şamsa yanır sonadək.

Ümidimi dikmişəm,
Onun pəncərəsinə.
Geyib nur paltarını,
Gələr yanıma yenə.

Mənsə çatıb qaşımı
Danışaram o zaman,



Dostların, tanışların
Kefini pozduğumdan.

Oturaraq üz-üzə,
İkimiz də bəxtiyar...
Bir bucaqda yanar şam,
Sınıq könlüm toxdayar.

Niyə gəlir yanıma,
Açır ürək sözünü?
Götürüb zərif ipi
Saplayır iynəsini

Niyə töküb-dağıdır
İnci-inci sözünü?
Niyə əyib başını
Gizləyir üz-gözünü?

Evim olur sopsoyuq –
Dəyməyəndə ayağı.
Görən nə vaxt yanacaq
Pəncərənin işığı?

Bət-bənizim ağarıb,
Ağ divardan da ağdır,
Yenə qaçıbdır rəngim.
Haçan qayıdacaqdır...

Nədən qorxuram belə,
İtirməli nəyim var?
Bunu necə söyləmək,
Necə danışmaq olar?

Gəlsə – nə deyim ona?
Deyim könlüm açılır?
Deyim qarlı yel əsir,
Evimə nur saçılır?

*7 dekabr 1906*

* * *

Pəncərə yuxuda yatırdı onda...
Getdi...
Dərdli güllər boyun əyirdi...
Qadın örtüyünün qırçınlarında
Gecənin sükutu çiçəkləyirdi...

Axşam şəfəqlərlə verib əl-ələ,
Bilirəm, yenə də qayıdacaqsan.
Bir Nil zanbağının yanağı ilə,
Məni məst eləyib oyadacaqsan.

Titrək əllərinin xəfif inadı,
Səsin, söhbətin də tanışdır mənə.
Sallaq çiyinlərin tutqunluğu da,
Belin, qamətin də tanışdır mənə.

Adında böyüklük, əlçatmaz vüqar...
Gözünün bozarmış toranlığından,
Sirli-əfsanəli qaranlığından
Qıvrıla-qıvrıla ilanlar baxar.

Bəs iradən hanı, onu da yanla,
Yaxın gəl, bir mənim gözümə də bax.
Məkrli, dumanlı baxışlarınla
Ürəyi parçala, ürəyi ancaq...

Qıvrılmış ilantək sürün yanıma,
Ayır bu dünyadan məni bir anda.
Xumar baxışınla çox da qınama –
Boğ məni saçının qaranlığında...

*13 mart 1907*



## QIZA

Sən onun önündə bir zərif saplaq,
O sənin önündə – vəhşi kimidi.
Ona xoş üzünü göstərmə nahaq,
Qapını döysə də, açma kilidi.

İşdir, qol zoruna soxulsa evə,
Qapı arxasında gizlənib yan dur.
O mənfur otaqda tapıb girəvə,
Quru divarlara od vurub yandır.

Görsən, yaxınlaşır rəzalət çağı,
Evin bir küncünə çevir üzünü .
Qara ləçəyinə bir iynə taxıb
Düyünlə, itirmə bir an özünü.

Çırpına-çırpına yaralı quştək
Ağrıdan, acıdan qışqıranda sən,
Qoy kobud ovcuna sancılsın bərk-bərk
Qara ləçəyinə düydüyün iynən.

Azğın ehtirasdan bir vəhşi təki
Özünü unutmuş o yönsüzbədən,
Qoy xəbər tutmasın kürəyindəki
Gömgöy göyərtdiyin diş yerlərindən!

*6 iyun 1907*

## SƏRBƏST FİKİRLƏR

*Q.Çulkova həsr olunur*

### ÖLÜM HAQDA

Axır vaxtlar tez-tez gəzir şəhərdə,
Mən də tez-tez rast gəlirəm ölümə –
Baxıb-baxıb qımışıram, gülürəm.
Neynim? Kefim belə çəkir. Bilirəm,
Əcəl bir gün haqlayacaq məni də.
Şosse ilə ötən zaman mən cındırın yanından
Çınqıllıqda uyumuşdu qızılgül,
Qalın barı arxasında Günəşdən
İppodrom yaşıllanıb yanırdı.
Uyumuşdu nəvazişli şəfəqdə
Yazda bitən zəncirotu, taxıllar.
Tribunanın yastı damı altına
Sığınmışdı dəb düşgünü veyillər.
Əlvan-əlvan bayraqcıqlar yellənir,
Adamlar da dırmaşaraq barıya
Məlul-məlul gözlərini döyürdü.

Qulağımda səslənirdi yolboyu
Narın yerdə at sürəyi, bir də ki,
Dırnaqların qopardığı tappıltı.
Birdən qəfil haray qopdu o yanda:
"Yumalandı! Diyirləndi!" – dedilər.
Tezcə qalxıb bir kötüyün üstünə,
Nələr gördüm: uçuşurdu jokeylər.
Dallarınca üzəngini yellədib,
Şütüyürdü boş yəhərli bir at da.
Lap yaxında... Qıvrımyarpaq ağacın
O üzündə dalı üstə sərilib
Yaşıl zəmi arasında saralan
Jokeyin də donuq mavi gözləri
Nəvazişli səmalara baxırdı.



Əllər yana, qıç – dartılı, elə bil
Bir əsrdir uyuyubdur beləcə.
Ona sarı yüyürürdü adamlar.
Təkərləri parıldayan lando da[1]
Lap uzaqdan tənbəl-tənbəl gəlirdi,
O gəlincə tökülüşüb adamlar
Qaldırdılar jokeyi...

Sallandılar sapsarı
Dar reytuzlu tab-tavansız ayaqlar,
Baş da düşüb çiyinlərdən asıldı...
Lando gəldi. Sarıçöhrə jokeyi
Ehmal-ehmal, yavaş-yavaş gətirib
Uzatdılar landodakı yastığa.
Bir nəfər də yan pilləyə atılıb,
Gah ayağı, gah da başı düzəldib,
Heyrətindən donub qaldı beləcə.
Kuçer tezcə geri sürdü landonu.
Bayaqkıtək parıldadı qanadlar,
Tənbəl-tənbəl diyirləndi təkərlər...

Elə yaxşı, elə sərbəst ölümdü.
Ömrü boyu bir fikirlə çapıb o:
Ən birinci gedib çatsın mənzilə.
Çapa-çapa at tövşüdü, dolaşdı,
Yana qaçdı belindəki yəhəri;
Saxlamadı ayaqları üzəngi,
Yumalanıb diyirləndi jokey də...
Dəydi başı doğma ana torpağa,
O baharlı, o mehriban torpağa
O andaca fikir keçdi başından –
Ən gərəkli, ən yeganə bir fikir –
Keçməyiylə ölməyi də bir oldu.
Gözlərə də ölüm çökdü əlbəhəl,
Qaldı meyit baxa-baxa göylərə.

[1] Lando – faytonabənzər araba

Elə yaxşı, elə sərbəst dünyadı.
Bir dəfə də gəzinirdim sahildə
Əldə – kömür taçkaları gəmidən
Odun, kərpic daşıyırdı fəhlələr.
Ağ köpükdən göyərmişdi çay bir az.
Köynəklərin yaxaları açılıb
Gün altında qovrulmuşdu bədənlər.
Gen, firavan Rusiyanın nur gözü
Parıl-parıl boylanırdı üzlərdən.
Ayaqyalın uşaqlar da arabir
Ova-ova sarıtəpə qumları
Hərdən kərpic, hərdən odun daşıyıb,
Oğrun-oğrun bir tərəfdə gizlənib
Parlayanda dabanları pasaqdan
Əyni kirli, sallaq döşlü analar
Söyüb, döyüb onları
əllərindən alırdı
Odunları, kərpici.
Sonra geri daşıyırdı yazıqlar
Yük altında sına-sına belləri
Uşaqlarsa qatarlanıb hərlənib
Oğurluğa başlayırdı təzədən:
Kimi odun, kimi kərpic qapırdı...

Birdən sular şappıldadı şappaşap,
Haray qopdu, həşir qopdu gəmidə:
"Yumalandı! Diyirləndi! Yıxıldı!"
Bir fəhlə də buraxaraq taçkanı,
Bir əlini çaya tərəf uzatdı.
Lap sahildə, qənbərlikdə ot üstə
Boş butulka görünürdü. Tez ora
Tökülüşdü əlvanköynək izdiham.
Sudan qarmaq çıxarırdı birisi...

Sahil boyu dirəklərin yanında
Cırıqköynək, cırıqşalvar bir adam
Yüngül-yüngül yellənirdi sularda.



İki nəfər köməkləşib tutdular
Sərələnmiş uzundraz gövdəni.
Üst-başından sü tökülə-tökülə
Dartıb, çəkib uzatdılar sahilə.
Qorodovoy qılıncını sürüyüb,
Yanağını yaş sinəyə söykədi.
Daş üstünə uzadılmış gövdənin
Ürəyini dinləyirdi, deyəsən.
Bir azdan da xalq yığıldı başına.
Hər tərəfdən yağdı səfeh suallar:
Nə vaxt düşüb? Çoxmu qalıb suda o?
Bəs görəsən o nə qədər içibmiş?
Deyib, hərə bir tərəfə sovuşdu.
Axır mən də düzələndə yoluma
Baxıb gördüm möhkəm vurmuş biri də
Qalanlara çox nüfuzla deyirdi:
Adamları məhv eləyir bu şərab.

Gün batmamış gedim gəzim bir az da.
Gedim gəzim – nə qədər ki istidir,
Nə qədər ki, beyin kütdü, fikir süst...

Bələdçim ol bu yollarda, ey ürək!
Ölümü də təbəssümlə izlə sən.
Yorularsan; dözəmməzsən, bəlkə də,
Mən keçirən bu firavan həyata.
Dözə bilmir, dözə bilmir adamlar
Sinəmdəki bu sevgiyə, bu kinə.
Mən istərəm həmişə
Baxa bilim adamların gözünə,
Şərab içim, qadın öpüm daima.
Bürkü aman verməyəndə gündüzlər
İstərəm ki, gecələri sübhəcən
Arzularla, xəyallarla doldurum,
Mahnı deyim! Küləkləri dinləyim!

## GÖL ÜSTÜNDƏ

Nəğmə havasına köklənib, dolub
Söhbət eləyirəm axşam gölüylə.
Uca sıxlığında nazik şamların
Qumsal çıxıntıda
Toran qəbirlərin, sərdabələrin
Durub arxasında, o gölə vurğun
Sevgili nəğmələr yollayıram mən.

Göl məni görməyir – gərək də deyil.
Məndən aşağıda süst bir qadıntək
Sərilib səmanı seyr eləyən göl
Suvarıb üfüqü dumanlarıyla,
Elə bil nazını çəkirdi onun:
Səthini oxşayan ensiz qayıq da,
Ucaboy şamlığın şiv cərgəsi də,
Çəhrayı sulara baş vurub indi
Yaşıl işığını əks elətdirən
Uzaq sahildəki tək semafor da.
Özünün yeganə polad yoluyla
Sürünüb gəlirdi üçgözlü ilan.
Göl onun sürünən, boğuq səsini
Fitindən çox qabaq yetirir mənə.
Çıxıntı üstündə durub baxıram;
Məndən yuxarıda – qranit məzar,
Məndən aşağıda – bəyaz bir cığır
Qorxar aşağıdan mənə baxanlar:
Başımda şlyapa, bu gecə vaxtı
Qəbirlər içində – tərpənmədən, şax,
Əllərim qoynumda – boylu-buxunlu,
Durmuşam dünyaya vurulmuş kimi.

Amma baxanım yox. Gedir qol-boyun
Məndən aşağıdan bir cüt sevgili.
Gəlmir veclərinə zərrə qədər də
Nə aşağıda – göl, nə yuxarıda – mən,
Onlara bir insan nəfəsi gərək,
Mənə də – şamların, suyun nəfəsi.
Bu qənirsiz gölə, bu gözəl gölə



Gərək, təmtəraqlı bir himn oxuyum
Üfüq aydınlığı, qəlb azadlığı,
Bir də ki, ucaboy şamlar barədə.

Bütün sevişənlər ötüb gedirlər,
Toran maviləşir, duman ağarır,
Bu vaxt aşağıda dəyir gözümə
Paltarı yüngülcə büzməli bir qız.
Məni görməyərək, yalqızca gəlib
Əyləşir bir məzar kənarında o...
Yanakı durumu sezilir aşkar,
Qoy əsla bilməsin o həsrətli qız
Qoy əsla bilməsin, varmı xəbərim
Bura nə xəyalla gəlibdi indi?..
Yanır işıqları yaylaq-bağların:
Orda – samovarlar, şit hırıltılar,
Bir də siqarların mavi tüstüsü...
Buraya tək-tənha gəlibdi o qız...
Yəqin qovacaqdı dalınca gələn
Darbalaq şalvarlı, tarım kitelli,
Dalını yırğayan caydaq zabiti!
Duman arxasına, kol arxasına,
Təpə arxasına, şam arxasına,
Elə uzaqlara baxır ki, o qız,
Mən o uzaqlığa baxa bilmərəm...

A zərif nazənin! – deyib tezcə də
Xəyalən mən ona ad axtarıram:
Adelina! Tekla! Ya da Mariya!
O isə fikirli-fikirli baxır
Burula-burula qalxan dumana.
Ah, necə, ah, necə qovacaq indi!
Artıq yaxınlaşıb gəlir zabit də –
Ağ kitel, şəvəbığ, düymə-buruncuq,
Şit görkəm... üstəlik şit də furajka...
Gəlib yaxınlaşır... sıxır əlini!..
Baxdı bəbəkləri aydın gözlərə!..
Qəfildən... marçamarç öpüb üzündən
Əlindən tutaraq apardı bağa!

Uğunub gedirəm! Sonra da qalxıb
Dırmana-dırmana yuxarılara
Onların başına gah şam qozası,
Gah da qum yağdırıb, acıqdan, hirsdən
Qışqıra-qışqıra rəqs eləyirəm
Köhnə qəbirlərin arasında mən –
Həm gözəgörünməz, həm ucaboylu...
Bərkdən qışqırıram: "Ey Fyokla, Fyokla!"
Onlarsa qorxudan, pərtlikdən bilmir
Hardandı qəhqəhə, qozalar, qumlar...
Zabit addımını yeyinlətsə də
Dalı yırğalanır əvvəlki kimi,
Qız isə sıxılıb bəyaz kitelə
Gedir qaça-qaça onun yanınca...
Gecəniz xeyir!
Deyərək yarğana qalxanda bu dəm
Əksim gölə düşdü... suda əksimi
Görüncə qışqırdım: "Salam-əleyküm!"
Sahil meşələri cavab qaytardı
Gözəlin səsiylə: "Salam-əleyküm!"
Qışqırdım: "Əlvida!" Dedi: "Əlvida!"
Yığıb dumanını heç dinmirdi göl.
Üzündə aşkarca əks olunmuşduq,
Mən özüm, bir də ki, müttəfiqlərim:
Allah da, torpaq da, bəyaz gecə də...

Fikirli-xəyallı o ağ gecədə
Evə qayıdarkən vaqon uçurdu,
Külək çırpılırdı yanan üzümə...
Gəldim. Otağımda ağardı səhər.
Ağardı – stollar, kitablar üstə,
Yumşaq kreslolar, yataqlar üstə,
Bir də faciəli aktrisanın
Yazdığı sonuncu o məktub üstə:
"Mən tamam halsızam. Tamam xəstəyəm.
Güllər də ovutmur. Məktub yazın siz...
Məni bağışlayın... bir də yandırın
Bu sayıqlamanı..."



Qüssəli kəlmələr, kədərli sözlər,
Yorğun şleyfitək yorğun, uzun xətt...
Şəvə saçlarında yanan ləl kimi
Kədərdən alışıb yanan hərflər.

*Şuvalovo*

## ŞİMAL DƏNİZİNDƏ

Nə günə qoyublar gör sahilləri
Avara frantlar, dəbbaz xanımlar?
Düzüb stolları, limonad içir
Saqqız çeynəyirlər, siqar çəkirlər.
Sonra da çimərlik seyrinə çıxıb
Qəhqəhələr ilə, qeybətlər ilə
Şoran havanı da zəhərləyirlər.
Sonra sürücülər gəlib onları
Parusin örtüklü arabalarda
Aparıb gedirlər dayaz yerlərə.
Dəyişib talyeri, mundiri orda
Yüngülcə çimərlik kostyumlarına,
Zəif əzələli büzük bədənlə
Suya tökülüşür cığ-vığla onlar.
Titrək ayaqlarla dayaq axtarıb
Elə *qışqırışıb həşirləşirlər,*
Guya ki, kişilər kefə baxırlar.

O yanda qürub da dibigörünməz
Əlvan piyaləyə döndərib göyü.
Qolboyun olubdu bir cüt şəfəq də –
Ekiz bacıları iki səmanın
Bir duman əriyir – mavi, çəhrayı.
Sallanıb dənizdə batan bulud da
Əcəl məqamında hirsli gözündən
Gah qızıl od tökür, gah da mavi od.
Dənizin içinə uzanıb gedən
Çürüyüb bozarmış dalğalarında
Əcaib, qəraib yazılar vardı:

"Əbədi səninəm". "Kolya və Katya",
"Bu yerdə Diodor İeromonax
Rahib İsidorla birgə olubdu.
Allahın işləri lap qəribəymiş" –
Oxuyub bunları; çıxdıq dənizə
Məzəli, motorlu şişman qayıqla
Qayıq fınxırdıqca benzin qoxuyur,
Şütüyür sularda qoşa qanadlar.
Ötüb çimərlikdə darıxanları,
Mayağı, buruğu, balıqçıları;
Əlvan ləpələrin üstüylə süzüb
Çıxdıq qəlboxşayan bir genişliyə.

Bizim arxamızda, uzaq üfüqdə
Səssiz qızartıtək donubdu yanğın.
Dəniz heyvanının kürəyi təki
Suya sərələnib Volnı adası.
Bizdən irəlidə, uzaqlardasa –
Gəmi işıqları, bir də sərsəri
Gömrük gəmisinin projektoru.
Biz üzüb gedirik mavi dumana.
Dənizə sancılı iti dirəklər
Alıb farvateri çəpər içinə.
O yanda – dirəklər arasındasa
Sayrışır balıqçı yelkənləri hey...

Dəniz ləpəlidir. Yelkənlər altda
Dayanıb o gözəl – dəniz yaxtası.
Nazik dora bağlı kiçik bir fənər
Asılıb feronyer cavahiritək
Nur saçır altında donuq göylərin.
Qəribə hörgülü gəmi ipiylə
Dartınıb sarınmış donqar qayıqda
Adamlar, sayarəng panamaları
Sakitcə, dinməzcə çəkib başına
Əlləri qoynunda oturmuşdular.
Dorun lap yanında – ortada isə
Bir matros dayanıb baxırdı pərt-pərt.
Yaxtanın yanından ötüb keçəndə



Ədəblə, ərkanla bizlərdən biri;
"Yedəyə alaqmı?" – deyib soruşdu.
"Təşəkkür edirəm. Yox!" – dedi bizə
Sadə lovğalıqla zabitəli səs.
Yenidən onları ötüb keçəndə
Baxdıq ibadətli, dolu ürəklə
Yelkənlər altında yatan gözəlin
Bizdən uzaqlaşan siluetinə...
Bir də ki, feronyer cəvahiritək
Axşam toranında yanan fənərə.

*Sestroretsk kurortu*

## DYUNIDA[1]

Sevmirəm mənasız bir lüğəti ki,
Sevgili sözləri, məzlum kəlamı:
"Mənimsən!" "Səninəm!" "Bircə dənəsən!"
"Ömürlük səninəm!" "Sevirəm" – olsun.
Sevmirəm heç cürə əsarəti mən.
Azad bir nəzərlə qəşəng qadının
Gözünün içinə baxıb deyirəm:
"Hələlik gecədir. Amma sabahsa
Bir parlaq, bir yeni gün doğacaqdır.
Qürurlu ehtiras, gəl apar məni.
Sabahsa mən çıxıb gedəsiyəm, bil".
Könlüm sadəlövhdü. Şor dəniz yeli,
Şamlığın qətranı bəsləyib onu.
Codlaşmış üzümdə nə varsa mənim
Elə könlümdə də – həmən, həməndi,
Şimal dənizində qaynayıb daşan
Bu cılız qumluqda mən də qəşəngəm!
Belə düşünürdüm Finlandiyanın
Sərhəddi boyunca velillənəndə,
Yaşılgöz, saqqallı-saçlı finlərin
Məchul ləhcəsini dinləyəndə də.

[1] Dyunı – yaşayış məntəqəsidir. Lakin hərfi mənası qum təpəcikləri deməkdir.

Sükutda hazırca dayanan qatar
Buxar gövşəyirdi platformada
Burda gömrükxana qoruqçuları
Yolun qurtardığı qumsal dərədə
Yatıb tənbəl-tənbəl dincəlirdilər.
O üzdə bir ölkə, el görünürdü –
Yurdsuz rus məbədi baxırdı burdan
Tanış olmadığı o yad ölkəyə.

Belə düşünürdüm. Birdən o gəlib
Dayandı yamanca. Günəşdən, qumdan
Gözləri qızarıb kürənləmişdi.
Qətranlı şamlartək şəvə saçları
Çiyninə düşəndə mavi çalırdı.
O gəldi. Yırtıcı baxışlarını
Zillədi yırtıcı baxışlarıma.
Ucadan şaqqanaq çəkib gülərək,
Bir ovuc qızıl qum, bir çəngə də ot
Tulladı üstümə, sonra atılıb
Hoppana-hoppana endi yamacı...
Düşüb arxasınca qovduqca qovdum,
Diddi üz-gözünü iynə yarpaqlar,
Paltarı cırıldı, əli qanadı.
Qışqıra-qışqıra qovdum onu mən,
Qovdum vəhşi kimi. Qovdum, səslədim.
Şeypurtək gurladı qışqırıqlarım.
Qumsal təpələrdə qaynaşan qumda
Güc-bəla sezilən ayaq izləri
Bir azdan şamlıqda qeyb oldu getdi,
Gecənin mavisi örtdü şamlığı.

Yüyürüb yortmaqdan olub təngnəfəs
Uzanıb qalmışam qumların üstə.
Yanan gözlərimdə dayanmayıb o,
Qaçır qəhqəhəylə, qaçır hələ də:
Ayaqlar – qəhqəhə, saçlar – qəhqəhə,
Qaçdıqca yellənən paltar – qəhqəhə...
Uzanıb beləcə düşünürəm mən:
Bu gün də gecədir, sabah da gecə.



Bu şeypur səsimlə kəsib yolunu,
Hələ ovlamamış onu vəhşitək.
Hələ deməsəm ki: "Mənimsən! Mənim!"
O da qışqırmasa: "Səninəm! Sənin!"
Gedəsi deyiləm burdan heç yana!

*İyun-iyul, 1907*
*Dyunı*

* * *

Dinlədim torpağı heyrət içində,
Əzabı hay-küylə boğmaq əbəsdir,
Ölməz ürəyindən qopan nə səsdir?!
Bu səsi boğursan zülmət içində,
Ehey, ayağa qalx, qalx şəfəq axıt,
Qaldır çəkicini, küləyə çevril,
Göyə lərzə salan şimşəyə çevril.
Göz-gözü görməyən zülməti dağıt!
Köstəbək, torpağı eşdiyin ağdır,
Bir səs eşidirəm çətin, şən, yüngül...
Ləngimə! Anla ki, zəif bir sünbül
Adi zərbədən də yıxılacaqdır.
Dən kimi torpaqdan baş qaldır qəti,
Çıx dünya üzünə, güc al səhərdən,
Bəzən təsadüfi qələbələrdən
Yaranır, qazılır məzar zülməti!
Yan, çırpıl, çapala... həyat gərəkdir,
Ötən bahar kimi gülən, səslənən,
Sənin öz qanınla doğan, bəslənən
Təzə bir məhəbbət yetişəcəkdir!

*3 iyul 1907*

* * *

Bahardır yenə, sonsuz narahat,
Arzuları da sonsuz sayıram
Qəbul edirəm səni, ey həyat,
Qalxan səsilə salamlayıram.

Məğlubiyyətlər – qəbulsuz mənə,
Sizə də salam qələbələrim.
Tökül, sel kimi göz yaşım yenə.
Gizli gülüşlər yanıma gəlin!

Mübahisələr, alqışlayıram,
Sizi yuxusuz gecələrimlə
Qoy mənim odlu baxışlarımı
Bahar məst etsin qönçələriylə.

Çətin də olsa insan hünəri
Qəbul edirəm həqiqətini,
O işıqlanan mavi göyləri
Bir də üzücü qul zəhmətini.

Qarşılaşırıq... həqiqətmi bu,
İlan saçların qoparır tufan...
Allahın adı müəmma dolu,
Süzülür soyuq baxışlarından.

Bu qəzəb üzlü görüşdə yenə,
Boynumdan zağlı qalxan asılar.
Sənin o mərmər çiyinlərinə
Qonmaq istəyər sərxoş arzular.

Baxıram, nələr olar dünyada
Dolar qəlbimə nifrət, eşq, aləm.
Həyat, min əzab, ölüm olsa da,
Mən yenə səni qəbul edirəm...

*24 oktyabr 1907*

* * *

Yuxuma girəndə şən düşüncələr,
Gördüm, səninləyəm, tək deyiləm mən.
Qəribə hay-küydən oyandım səhər,
Bir də ki, çatlayan buzun səsindən.



Bir möcüzə gördüm bu yuxularda,
Dalğalar sahili yalayırdılar.
Qırmızı paltarlı adamlar orda,
Gülərək tonqallar qalayırdılar.

Çay nəğmə deyərək qətran çəkilən
Ağır qayıqlara baxıb keçirdi.
Buzlar, dalğalar da... suya tökülən
Sınıq avarlar da axıb keçirdi.

Məstəm şən hay-küydən, qovub kədəri,
Ürəyim doludur, doludur, bilsən,
Mənimlədir bahar düşüncələri,
İndi bilirəm ki, sən tək deyilsən!

*11 mart 1908*

* * *

Körpü üstə dindi tütək,
Almalar da çiçək-çiçək.
Səmaların mələk qızı
Alıb yaşıl bir ulduzu
Qaldırdı lap yüksəklərə
Nə əcəbdi bu ucalıq,
Yaşıl yamac, dərin dərə...

Tütək dinir: doğdu ulduz,
Aman çoban, qov sürünü.
Körpü altda dinir sular:
Dünya əcəb xoş görünür,
Unut getsin qayğıları,
Belə aydın dərinliyi
Sən heç zaman görməmisən,
Belə dərin sükuta da
Heç vaxt qulaq verməmisən...

Gəl seyr elə bu axını,
Haçan gördün bu yuxunu?

*22 may 1908*

* * *

Çaylar axır qəmli-qəmli, ağır-ağır,
Yuya-yuya sahilləri...
Çöllər boyu boz talalar durub baxır,
Gözlərində dərd-kədəri...
Ah, Rusiyam! Ah, arvadım! Ağrı ilə,
Keçirək bu yolları biz...
Bizim yollar! – Tatarların oxu ilə,
Deşilibdir tunc sinəmiz...

Bizim yollar... çöl yolları, dərdli-dalğın,
Ah, Rusiyam! Sənin dərdin...
Zülmət çöksə, qərib zülmət, axın-axın,
Mən qorxmazdım, mən dözərdim...

Mübarizə əbədidir, dinclik yoxdur,
Toz içində, qan içində,
Uçur səhra madyanı da, uçur çoxdan,
Keçir qürub dan içindən.

Sonu yoxdur... verstlər harda, mənzil harda?!
Ayaq saxla, bir dayan, dur...
Ürkə-ürkə köç eləyir buludlar da.
Qürub tamam qızıl qandır.

Qürub qanlı, ürəkdən də hey axır qan,
Ah-nalələr qopur elə...
Dinclik yoxdur... çöl madyanı dayanmadan,
Dördayağa çapır elə.

*7 iyun 1908*

* * *

Səslənəndə tufan, qaralanda qaş,
Gözəl olağacı yondum palıddan.
Geyimim əzikdi, həm də ki nimdaş,
Gizlətmək istədim tanışdan-dostdan.



Fəqət mən yolumu taparam yenə,
– Ey şaxtalı günəş, parla – deyərəm.
Gəzib bütün günü, Allah xətrinə,
Axşam pəncərəni gəlib döyərəm!

Çıxaraq önümə ağ əlləriylə
Gənc qız sehr dolu qapını açar.
Gülümsər qızılı gur telləriylə,
Günəş kimi təmiz qəlbi nur saçar.

Ulduz, Ay saçının bir darağıtək,
"Gəl, içəri şahım, könlümün tacı"
Parlar göz yaşıyla göy qurşağıtək
Palıddan düzələn bu əlağacı!

*25 mart 1903*

* * *

Sən ki pıçıltılı sözdən doğuldun,
O gün, axşamçağı bağçada oldun.
Bahar nəfəsinlə bu bağça güldü,
Başına rəngbərəng güllər töküldü.
Mənə xatırlatdın bir ağ yelkəni,
O vaxtdan görürəm yüngül kölgəni.
Duyuram güllərin xoş nəfəsini,
Bir də ki, o incə ayaq səsini.
Həyəcan içində çağlayır duyğum,
Səninlə bağlıdır yuxusuzluğum.

*May, 1903*

* * *

O düz on beş yaşındaydı məni ürəkdən
İstəyirdi... mənə məhrəm ola bilərdi.
Sevinc ilə ürəyimi açdım ona mən,
Gülüb getdi varlığımda yurd saldı dərdi.

Bu çoxdanın söhbətidir o vaxtdan artıq,
Meydan ötən fəsillərin, illərin idi.
Biz çox az-az görüşərdik, az danışardıq,
Aramızda olan sükut çox dərin idi.

Qış gecəsi röyalara, sadiq qalaraq,
Tənha çıxdım izdihamlı, nurlu zaldan mən.
Maska taxmış adamların içində ancaq,
Bu nə idi... gözüm ona sataşdı birdən?!

O da gəldi arxam ilə səssiz-səmirsiz,
Bilmədi ki, nə olacaq bir an içində.

Tək şəhərin qaranlığı gördü şübhəsiz,
Böylə gəlin itdi zülmət, duman, içində.

Soyuq dolu, günəş dolu aydın bir səhər,
Biz kilsədə onun ilə yenə görüşdük.
Biz anladıq nurlu olub sükutlu illər,
Nə olubsa ucalıqdır biz başa düşdük...

Bu hekayət dolanacaq illəri hökmən,
Dolu, isti ürəyimdən səslər yüksələr.
Bir bəzəkli bina hördüm bu nəğmələrdən,
Başqasını oxuyaram bir zaman gələr.

*16 iyun 1903*

## DOSTLARIMA

*Susun, danışmayın, ey məlun tellər!*
***V.Maykov***

Gizlicə düşmənik bir-birimizə,
Həm yadıq, həm karıq, həm də qibtəkar.
Ömürlük ədavət nə verib bizə,
Onsuz da yaşamaq, işləmək olar!



Nə etmək! Gizlicə çalışır hərə
Özü öz ömrünü zəhərləməyə,
Bütün divarları tutub zəhərə,
Bir bucaq tapmırıq baş girləməyə!

Nə etmək! İtirib bəxtə inamı,
Gülürük, uğunub gedənə qədər.
Sonra sərxoş-sərxoş dayanıb hamı,
Baxırıq: nə təhər dağılır evlər!

Qədrini bilmirik dostluğun, ömrün,
Mənasız sözlərlə baş girləyirik.
Nə etmək! Gələcək övladlar üçün,
Yolları indidən təmizləyirik.

Çürüyüb gedəndə sümüklərimiz
Gicitkan içində bir hasar altda,
Hansı tarixçisə bir vaxt, şübhəsiz,
Əsər yazacaqdır bu günlər haqda...

Amma mənfur əsər incidəcəkdir
Günahsız, sadəlövh, pak uşaqları:
Doğum – ölüm günü, ya neçə sətir
Mənalı, mənasız sitat qatanı...

Kədərli qismətmiş ağır güzəran,
Necə daşıyasan bu dərdi-səri:
Hansı dosentəsə sərvət olasan,
Törəyib çoxala tənqidçilərin...

Təzə cəngəllikdə qazıla məzar,
Uyuyub əbədi yuxuya gedəm!
Susun, danışmayın, mənfur kitablar!
Sizi yazmamışam heç vaxt, heç vədə!

*24 iyul 1908*

* * *

Tanışdır, doğmadır çöhrən necə də,
Elə bil mənimlə keçibdi ömrün.
Evdə, qaranlıqda, çöldə, küçədə
Zərif surətini görürəm hər gün.

Haraya üz tutsam, ordasan ancaq –
Arxamca səslənir yerişin sənin.
Sənmisən hər gecə düşüb qaramca
Zərif addımlarla haqlayan məni?

Qapıdan içəri boylanan zaman
Gözümə görünüb, tez də yox olan,
Dadlı bir röyatək qəfildən itən
Görünən, görünməz, söylə, sənmisən?

Bu tərəf biçənək, o yansa xırman...
Hərdən öz-özümə düşünürəm mən:
Orda, məzar üstə səssiz oturan
O bəyaz yaylıqlı sənmisən, görən?

Ora üz tutmuşam – tərpənməmisən,
Yaxına gələndə – durub qaçmısan.
Oxuya-oxuya çaya enmisən,
Səsinə zənglər də səs verib haman...

Göz yaşı sinəmdə boğub nəfəsi,
Səni gözləmişəm – qəlbimdə muraz.
Kilsə zənglərinin aramsız səsi
O əziz səsini batırıb bir az...

Get-gedə kiriyib tamam susmusan,
Təkcə ağ yaylığın ağarıb səssiz.
Amma bilirəm ki, mütləq bir zaman
Yenə də üz-üzə gələcəyik biz.

*1 avqust 1908*



## RUSİYA

Məzlum Rusiyam, mahnılarımdır,
Küləklər ilə gəzir aləmi.
Boz daxmaların mənə doğmadır
İlk məhəbbətin göz yaşı kimi.

Sənə rəhm edə bilmirəm əsla,
Xaç gəzdirirəm qayğı ilə mən.
Ver istədiyin sehirbazlara
Talan olunmuş gözəlliyindən.

Səni aldatmaq hədərdir, hədər,
İtməyəcəksən, batmayacaqsan,
Təkcə dərd, ələm bürüyə bilər
Sənin o gözəl çöhrəni, inan.

Eybi yox, bir az qayğın çox olar,
Dalğa artdıqca çay gur olarmış.
Çölün o çöldür, səhran o səhra,
Dəsmallarında naxış o naxış.

Düzələr, inan, ən müşkül işlər,
Uzaq yol rahat olur demişlər,
Haçan ki, əngin üfüqlərində
Ümidlə dolu bir baxış gəzir,
Haçan ki, qəmli üfüqlərində,
Dinir yamşikin sakit nəğməsi...

*18 oktyabr 1908*

* * *

Şəhər tünlüyündən, qovhaqovundan,
Bir də səs-küyündən qaçıram deyə,
İçimdə bir sevinc məni ovudur,
Səsləyir tufana, zülmət gecəyə.

Hər şeyi, hər şeyi unuduram mən...
Dörd tərəfim evlər... tramvaylar... qar...

Qaçıram dağınıq fikirlərimdən,
Uzaqda – boşluqda fənərlər yanar...

Başımı itirib heyranlığımdan,
Mən təhqir olunsam, əzilsəm... nəsə –
Beləcə, yanına qayıdan zaman
Bağışlayarsanmı məni görəsən?

Sən – yolum üstündə tək mayak kimi...
İçimdə kükrəyən tufanı, odu,
Şerimi, dəlisov fikirlərimi
Bağışlayarsanmı, qolum-qanadım?

Bəlkə bağışlamaq heç gəlməz vecə,
Bəlkə keşiyimi çəkəsən hər dəm?
Ürək oyaq qalsın – yollar gizlicə
Məni qoparmasan ana Vətəndən...

*2 fevral 1909*

## VENESİYA

Onunla tərk edib sahilləri mən
Onunla seyr etdim dənizləri də.
Onunla dolanıb yad elləri mən,
Unutdum ən yaxın əzizləri də.

Ey yaşıl düzdə
Qırmızı yelkən!
Qara şal üstə
Zərli şüşəsən!

Hüznlü ayindən qayıdıb gəlir,
Qəlbində qanı da qalmayıb qəti.
Boynunda xaçından usanan həzrət...
Adriya sevgimi – son məhəbbəti –
Bağışla, əfv et!

*9 may 1909*



## FLORENSİYA

### 1

Öl, ey Florensiya, – satqın İuda,
Məhv ol əsrlərin toranlığında!
Səni nə sevəndə salaram yada,
Nə də xatırlaram əcəl çağında!

Bella[1], rişxənd elə özün özünə,
Daha əvvəlkitək deyilsən qəşəng!
Məzar qırışları çöküb üzünə,
Hüsnünü çürüdüb pozub məzartək!

Avtomobillərin xır-xır xırıldar,
Eybəcər evlərin bənzər yosuna.
Özün qərq olmusan səni saraldan
Ümumavropanın sarı tozuna!

Velosiped səsləri qalxıb lap zilə
Müqəddəs rahibin yanan yerdəcə; –
Orda Leonardo, Beato belə
Mavi röyalarda süzüb hər gecə!

Zəngin Mediçləri edib narahat,
Tapdayıb salmırsan zanbağı yada.
Dirildə bilməzsən özünü daha
Bu tozlu, bu küylü alverxanada!

Rəzil kütlələrin sonsuz fəryadı,
Üfunət qoxulu kilsə gülləri –
Üst-üstə yığılan həsrətin qatı –
Çəkil əsrlərə, qaytar illəri!

*May-iyun, 1909*

---
[1] Bella – italyanca qəşəng deməkdir. İtaliyada Florensiyanın ən çox yayılmış adı Belladır.

## 2

Bənzərsən bir zərif süsən-sünbülə;
Ey Bella, o tozlu Kaşinlərində
Bir sonsuz, çarəsiz məhəbbət ilə
Sənin həsrətini çəkdim dərindən.

Xoşdur çarəsizlik həddini aşmaq,
Qoynunda yaşayıb arzulamaq da;
Qədim qızmarına gedib qovuşmaq,
Qocalan könlümün sehri damaqda...

Ayrılıq salacaq bizi axına,
Uzaq ölkələrdə yada düşərək,
Sisli süsənlərin girər yuxuma,
Yenə ilk gəncliyi xatırlar ürək.

*İyun, 1909*

## 3

Sakit-sakit canlar üzən
Ehtirasa dalıb könül;
Sisli süsən, zərif süsən
Rayihələr çağlayan gül,
Deyir bütün çayları sən
Üz xəyalı yelkənlərdə.
Deyir cumub göylərə sən
Bat əbədiənginlərdə.
Dalsam axşam qızmarına,
Mavi qızmar olub yedək,
Məni mavi axarına
Alıb gedər göy dalğatək...

*İyun, 1909*



## 4

Yandırar buz baxışı,
Daşları – sanki ocaq.
Sisli süsən alışıb,
Elə bil ki, uçacaq.
Sən ey nəhayətsiz qəm,
Səni əzbər bilirəm.
O zil qara, dəruni
İtalya göylərinin
Qara qəlblə görürəm.

*İyun, 1909*

## 5

Yalançı pəncərə – qapqara göydə,
Yanır projektor qədim sarayda.
Əynində naxışlar bir ayrı küydə,
Üzündə təbəssüm özgə harayda.

Şərab gözlərimi çəkir yuxuya,
Şərab damarımda gəzir xatasız...
Sinyora, bu axşam nədən oxuyum,
Nədən oxuyum ki, şirin yatasız?

*İyun, 1909*

## 6

Florensiyanın bürküsü altda
Hissdən, duyğudan daha kasıbsan;
Güllər də kədərlə açılır, hətta,
Kilsə pilləsitək sən də susubsan.

Barı yaradıcı yalanı saxla,
Qalan hisslərini qoru təkcə sən.
Bəlkə sənətdəki yüngül qayıqla,
Dünya xiffətini üzüb keçəsən.

*İyun, 1909*

## 7

Yerdən mavi dumantək
Qalxır axşam qızmarı,
Toksan düzünün çarı...
Hər şeydən yan ötərək
Atılır yarasatək
Küçə fənəri altda...

Çoxalır düzən yerdə
İşıqlar yığın-yığın,
Əks olur vitrinlərdə
Daşların parlaqlığı.

Dağlardan toran enib
Bürüyəndə şəhəri,
Meydan konsonu dinib
Artırır nəşələri.

Süsən-sisli xəyalda,
Köpüklənir bokalda
Həzrətin göz yaşları...
Florensiya, çal-çağır,
Yanıq güllü tacınla,
Dərdin, ağrın-acınla!..

Qoy ötsün konsonanın
Vəfalı eşq dilləri,
Gecələr yuxu bilməz,
Dartıb sındır telləri;
Dəfini çal!
İçində
Hıçqırığı gizləyib;
Döngələrdə qəlbini
Hüzn, kədər gözləyir...

*Avqust, 1909*



* * *

Olubdu, olubdu, olubdu bunlar:
Ömür burulğanı, dövran gərdişi.
De hansı qüvvələr, hansı yalanlar
Geriyə qaytarar səni – keçmişi?

Moskva Kremlinə gedib sığınıb
Gözləsəm, büllurtək bir səhərçağı,
Könlümün əzəli heyranlığını
Mənə qaytararmı mənim torpağım?

Yoxsa ki, küləkli Pasxa gecəsi
Nevanın buzları tərpənən vaxtı,
Dilənçi bir qarı çəliklə gəzib
Suda meyitimi axtaracaqdı?

Yoxsa yarpaqların çal tökümündə
Çal payız çökəndə yola-yolağa,
Sevdiyim talada, çiskinli gündə
Didəcək canımı cavan çalağan?

Yoxsa ki, möhnətli bir həsrət ilə
Dörd divar içində dərdli bir axşam,
Gərəkli, əbədi zərurət ilə
Bəyaz mələfədə uyuyacağam?

O yeni həyatda, bəlkə də, hökmən
Yadımdan çıxacaq əvvəlki istək.
Bəlkə anacağam dojiləri[1] mən
Bu gün Kalitanı yad etdiyimtək?

Amma inanıram – qalacaq izi
Belə ehtirasla sevdiyim nə var,
Bu yoxsul həyatın hər ürpərtisi,
Bu mübhəm yanğılar, alovlanmalar!

*Avqust, 1909*

[1] Dojilər – Venesiya Respublikasının hökmdarları belə adlanırdı.

## RAVENNA

Nə qədər ötəri, fani niyyəti
Əsrlər qoynunda dəfn eləyərək,
Yatmısan mürgülü əbədiyyətin
Qoynunda, Ravenna, körpə uşaqtək.

Romanın darvaza qapılarında
Qulların mozaik daşımır daha.
O sərin bazilik daş divarında
Qızılı rənglər də aşınır daha.

Türbəni yalayan nəm busələri
Daha zərif edir kobud tağları.
Göyərir müqəddəs kraliçələrin,
Bir də rahiblərin sarkofaqları.

Elə səssizdi ki, qəbirlər zalı,
(Soyuqdu kölgəli daş kandarı da)
Oyanıb eləsə, bəxtiyar Qallın
Baxışı daşları yaxmasın oda.

Hərbi döyüşlərin, qanın, qadanın
Tamam unudulub, silinib izi –
Səsi zühr eləsə Plakidanın,
Qadalı illəri vəsf eləməsin!

Geri çəkilib ki, dəniz neçə boy
Güllər də təpəni bağrına basıb –
Qəbirdə uyuyan Teodorix qoy
Ömür tufanını arzulamasın.

Binalar, insanlar, üzüm çölləri,
Susuz qəbir kimi, susur həmahəng.
Təkcə latınların bakir dilləri
Məzar daşlarında dinir şeypurtək.

Dalğası üstümə gələr qüssətək,
Ravenna, dənizin taleyinə bax:



Kədəri
Qızların diqqətli, hürkək,
Sakit nəzərində sezilir ancaq.

Gecələr vadini dolanan kəsi
Dinlə gələcəkdən danışsın yenə;
Təkcə qartal Dantın qartal kölgəsi
Bir yeni həyatdan söz açır mənə.

*May-iyun, 1909*

## SPOLETOLU[1] QIZ

Qamətin dümdüzdü kilsə şamıtək
İti baxışın da qılınctək kəsən.
Ey gözəl, görüş ha ummayır ürək,
Qoy girim tonqala rahib kimi mən.

Xoşbəxtlik, nəvaziş gərəyim deyil,
Kobud nəvazişim könlünə dəyməz!
Mən baxıb sevirəm, sənətkaram, bil,
Ey hasar dalında çiçək dərən kəs!

Mariya yan ötür, əyib qəddini,
Yandıran günəşi, qovan küləyi.
İzn ver, gözlərim görsün rəddini,
Şirin ağrıları dadsın ürəyim!

Bu pünhan şerimin inci sözünü.
Qıvrım saçlarına hördüm mən daha
Zülmət qaynağına parlaq gözlərin
Vurğun könlümü də verdim mən daha.

*3 iyun 1909*

[1] Spoleto – İtaliyada şəhər adı

## MOSKVADA SƏHƏR

Ruhuma dad verir tezdən oyanıb
Qum üstə seyr etmək o zərif izi.
Ruhuma dad verir hüsnünü anıb
Duymaq ki, qəlbimdə varsan, əzizim.

Mən səni sevirəm, qəlbi səhərlim,
Qayğısız gəncliyim, sevdalı dilbər,
Büllur zərifliyi qoca Kremlin
Hüsnüntək təmizdi, safdı bu səhər.

*İyul, 1909*

* * *

Büllur kimi ağ dumandan,
Yuxutəhər bir gümandan
Qalxdı kimsə, baxdı kimsə...
(Gur restoran otağında
Şərab vardı qabağında.)

Cır qaraçı zümzüməsi,
Uzaq skripka naləsi
Dindi uzaq salonlarda...
Qız salona girən yerdə
Əks olundu güzgülərdə.

Gözlər gözə baxıb yandı
Geniş meydan işıqlandı.
Maqdalina! Maqdalina!
Əsdi çöldən axan külək,
Tonqalları yaxan külək.

Çöldə tufan, əldə bokal
Boylandığın pəncərə lal;
Ömür də ki, hələ yarı;
Baş qatsa da qasırğalar,
Gün qovuran bir ölkə var!



Bu dünyada əzab, illət,
Dilənçilik, tərif, töhmət
Bir də əfi təbəssümlər
Rüsxətini, ömrünü sən
Bokalımtək sındır hökmən!

Uzun, sonsuz gecələrdə
Rahat olsun yataq yeri;
Qorxu ayaq saxlasın qoy!
Vəhmələnən bəbəkləri
Ölüm toru bağlasın qoy!

*6 oktyabr 1909*

## ADALARDA

Budur sütunların qarlı cərgəsi,
Yelagin körpüsü, bir cüt də işıq.
Vurğun bir qadının sevdalı səsi,
Atın fınxırtısı, qumun xışxışı...

Busədə qovuşan bir cüt kölgə də
Uçur xizəklərin ağuşundaca.
Nə qısqana bildim mən, nə gizlədə
Təzəcə sevdiyim yara möhtacam.

Adam ləzzət alır, bir qəmli ləzzət
Bilsə ki, gedəcək sevgi də qartək.
Nə lazım, nə lazım, nə lazım, əlbət,
Bir vəfa naminə and-aman etmək?

Yox, birinci deyil oxşadığım kəs;
Hər şeyi yüz ölçüb biçdiyim andan,
Mütilik etmirəm yalandan, əbəs,
Məmləkət-filan da ummuram ondan.

Hər dəfə sözsüzcə, mən elə-belə,
Sayıram həndəsi bir səbat ilə.

Çılpaq adaları, sərt küləkləri
Alçaq körpüləri, boz dirəkləri.

Hələ bir adətə sadiq qalıb mən,
Ayı dərisini doldurub həmən,
Bir zərif bədəni qucmaq istərəm,
Qarlı qaranlığa qaçmaq istərəm...

Zərif başmaqları anıb, bəlkə də,
Asandı vurulmaq soyuq kürkə də...
Axı bilirəm ki, üz-üzə gəlsək,
Roqib qılıncına tuş olmaz ürək...

Axı anası da, əllərində şam,
Yolunu gözləmir, hey yana-yana.
Axı yazıq əri səhər, ya axşam
Daha istəməz ki, onu qısqana...

Ötən gecələrin ziyası, şamı,
Bir sevda eşqinə yanan çil-çıraq,
Hamısı bir yerdə – balın davamı,
İşıqdan torana keçiddi ancaq...

*22 noyabr 1909*

* * *

Bir qarlı toranda bir qara qarğa,
Bir əsmər çiynində bir qara çarğat.
Bir qəmli nəğmədə zərif məlahət
Cənub gecəsindən salıbdı söhbət.

Qılıqlı ürəyim qayğıdan azad,
Uçunur harasa – haqlıya, yetə...
Tövşüyə-tövşüyə uçur löhrəm at
Uçurumlar üstüylə əbədiyyətə.

Bu da qarlı külək, sənin nəfəsin,
Dodağım məst olub bayaqdan bəri...



Canım Valentina, istəyim-gözüm
Nə gözəl oxuyur tuti dillərin...

Qəlbimə sığışmır dünya heybəti!
Onda – od busələr, sayıqlamalar,
Qaraçı səsinin bihuş zülməti,
Komet uçuşunun şütüməyi var!

*Fevral, 1910*

* * *

Birgəmi can verək, canım Rusiya?
Türməli, Yermaklı, Sibirli, çarlı!
Eh, bəlkə ayrılaq, təəssüflənək...
Neynir zülmətini azad bir ürək?

Allaha, tanrıya inandın yoxsa?
Nəğməndə nələri eşitmək olar?
Meryadı ya Çuddu hayana baxsan –
Çırpıtək döşənib batdaqlı yola...

Çatdı, yetişdisə əlin hər elə,
Qaldı O Çarqrad – ziyarətməkan...
Tərlanlar, sonalar buraxdın çölə,
Yeridi üstünə qara bir duman....

Aşıb Ağ dənizi, Qara dənizi,
Qara gecələri, ağ gündüzləri.
Seyr edir vəhşitək, keyiyib üzü,
Od-alov püskürür tatar gözləri...

Obalar üstündə hər gecə dalğın
Şəfəqlər sayrışır qızıl gün kimi...
Niyə çaşdırırsan mürgülü ilğım,
Oynada-oynada azad könlümü?

*22 fevral 1910*

## KOMİSSARJEVSKAYANIN ÖLÜMÜNƏ

Gəldi gecə vaxtı uzaq qütbdə,
Uyuyub yatanda ölü bir diyar.
Heç kəs inanmırdı, gözləmirdi də,
Sanki may ətrindən ərimirdi qar.

Heç kəs inanmırdı, amma ki, bir səs
Bahardan oxuyub fəğan edirdi.
Sanki bir əlçatmaz, ya bir ün yetməz
Zirvədə simləri yel tərpədirdi.

Elə bil qısmışdı göylər qarını,
Tufanda torpaqlar çaxnaşırdılar.
Gərib dünya üstə qanadlarını
Simli serafimlər ağlaşırdılar.

Sükuta batmışdı türbə axşamdan,
Soyuq bir gülüşə bürünmüşdü qütb.
Getdi, gördüyümüz o ehtişamdan,
Qanadlar qalmışdı üfüqdə bir cüt.

O nə fəğan idi? Nə dərd idi bəs?
Nəyinə aşiqdi görən, bizlərin?
Öldü əbədilik baharlı bir səs,
Söndü ulduzları mavi gözlərin.

İnsanlar kor olur, buludlar ocaq...
Biz hardan bilək ki, harda zəfər var?
Bir yanar daş düşüb bu yerə, ancaq
Bitib dövrəsində sehirli otlar.

Şöhrətdən, sevgidən, şərdən, həyatdan,
Ey cana yığılan, yat bu halınla.
Burda tapışmısan səninlə yatan,
O ülvi, möhtəşəm, xam xəyalınla.

Nəyik, nə karəyik biz bu xeyratda?
Yetirə billikmi bir kömək əli?



Anlamlı olsa da ölüm həyatdan,
Yansa da gecədə dəfn məşəli....

Göylərdə olsa da bizlədi ancaq,
İnam buludlarda tutubdu qərar:
Küləyin yellədib açdığı bayraq,
Ürəkdə həsrəti çəkilən bahar!

*Fevral, 1910*

## DEMON

Sıxıl qucağıma möhkəmcə, yaxın,
Günün gün olmayıb yadlar içində.
Gör nələr görürəm, a mənim yuxum,
Sənin busəndəki adlar içində!

Sənin əzabının çılğınlığında
Heç vaxt görünməmiş bahar həsrəti,
Uzaq bir şəfəqin ilğımlığında
Zurna havasıtək uzanıb gedir.

Şəfəq işığına, zurna səsinə
Gətirdim dağlara – sisli ellərə
Yorğun dodağımı, yorğun gözümü
Bir də qırmacını qırıq əllərin.

Dağlar qürubunun tünd yanğınında
Mavi qanadların səyriməsində
Tamara eşqiylə sənin yanında
Qaldım tab-tavansız bu yer üzündə...

Yuxuda gördüm ki, uzaq aulda
Yastı yamacında bir ulu dağın
Kim isə həsrətdən qırışmış halda
Çırpır bizə tərəf çadra-duvağı...

Ağlayıb oynayır sinəsi dağlı,
Batır toz içində zurnanın səsi...
Nə qədər istəyir çapsın adaxlı!
Hədəfdən yayınmaz çeçen gülləsi.

*19 aprel 1910*

## DƏMİR YOLUNDA

*Mariya Pavlovna İvanovaya*

Toz-torpaq içindən, xəndək içindən,
Uzanıb adama baxır canlıtək.
Başında al yaylıq bir incə bədən...
Bir yaraşıqlı qız, cavan bir mələk.

Meşə kənarından səs gələn kimi,
Bir vaxt yüyürərdi o səsə doğru.
Gəzərdi vağzalın səkilərini,
Sonra talvar altda gözləyərdi o.

O qanadlanardı qatar səsindən,
Xəyallar alardı onu qoynuna.
Bəlkə də vaqonun pəncərəsindən,
Kimsə diqqət ilə baxacaq ona.

Vaqonlar qaydayla ötüb gedərdi,
Sürünər, açılar, sıxılardılar.
Sarı, göy vaqonlar sükut edərdi,
Yaşıllar ağlayıb oxuyardılar.

Gözləri yuxulu adamlar heyhat,
Durub baxardılar, laqeyd, bixəbər.
Dəmiryol vağzalı... solğun bağ-bağat,
Bir də jandarmalar görünərdilər.

Amma bir yol qusar, xəyaldımı bu,
Baxıb pəncərədən dalğın, biqərar;



Bir odlu baxışla hey süzdü onu,
Süzdü... uzaqlarda yox oldu qatar.

Bu cürə cavanlıq ötüşdü fəqət...
Həyatdan almayıb əsla kamını.
Yol gözləyən həsrət, daşqəlbli həsrət,
Üzdü varlığını, üzdü canını.

Eh, çoxdan ürəyi hicran sıxıbdır,
Nə qədər təzimlər verilib yenə.
Nə qədər hərisli gözlər baxıbdır,
O kor vaqonların kor gözlərinə.

Ona yaxınlaşıb siz bundan belə,
Sual da verməyin ona ağırdır.
Eşq ilə, çirkabla, təkərlər ilə,
Hər şey həlak olub, hər şey ağrıdır.

*14 iyun 1910*

* * *

Bizim körfəz fikrindəmi,
Uyuyurdu mavi sular...
Sahilboyu neçə gəmi,
Cərgələndi qatar-qatar.

Heyrət, maraq, sual, nida,
Durub baxdıq zaman-zaman.
Gündə yanmış matroslar da,
Ötüşürdü yanımızdan.

Yer böyüdü, göy böyüdü,
Cazibəyə döndü səhər...
Biz nə gördük, bir də gördük,
Üzüb gedib o gəmilər...

Matroslar da itdi hələ,
Dünya yenə adiləşdi.

Okeandakı mayak belə,
Tənbəl-tənbəl yandı, keçdi...

Necə azdır görürsənmi,
Bu həyatdan istəyimiz.
Sevinirik uşaq kimi,
Adi, təzə hər şeyə biz.

Cibində uzaq ellərin,
Tozunu tap... sehrikartək,
Yenə dünya gözlərində
Rəngdən-rəngə bürünəcək...

*1911 – 6 fevral 1914*

## XALQ VƏ ŞAİR

Əvvəli, axırı yoxdu həyatın.
Təsadüf izləyib, güdür hər kəsi.
Başımız üstündə – toran qanadı,
Bir də ki, tanrının nurlu çöhrəsi.
Amma, ey sənətkar – qadir tərəzi,
Əvvələ, axıra əmin ol möhkəm.
Ağlın, dərrakənlə öyrən, gör bizi
Harda cənnət güdür, harda cəhənnəm.
Tək bircə baxışla biləsən gərək
Nələr ötəridi, nələr əzəldi,
Ötəri şeylərin üstündən xətt çək,
Onda görərsən ki, dünya gözəldi.
İşığın, zülmətin yerini bil sən.
Dünyada gördüyün günahı, pakı
Keçirib qəlbinin hərarətindən
Soyut süzgəcində ağlın, idrakın.
Elə Ziqfrid də zağlı qılıncı
Köz kimi qızardıb, salıb kürəyə;
Sonra suya çəkib lap qaralınca
Dartıb cızhacızla, dartıb geriyə...



Notunqu hərləyib vuran çağında
Tiyəsi əlində parlayıb par-par.
Riyakar Mime də çaşğınlığından
Ayağı altına döşənib naçar!
Qılıncı kim döyər? – Qorxu bilməyən.
Mənsə həm acizəm, həm iqtidarsız,
Palçıqdan yaranmış adi köləyəm,
Elə sizin kimi – necə ki varsız.
Bu dünya mənimçün qorxudur hər an.
Göylərə dirənib alov dilləri.
Daha sərbəst deyil azad qəhrəman
Xalqın əlindədir vuran əlləri.
Ürəkdə, ağılda artıb iştaha,
Hər ağıl özündən bir qanun deyir.
Heyvərə ağzını açıb əjdaha
Bütün Avropanı udmaq istəyir...
Ona ilk zərbəni kim endirəcək?..
Bilmirik, di gəl ki, qədimdəkitək
Komamız üstünü alıb dumanlar
Bir yanğın qoxuyur. Orda yanğın var.

Bu dünya nəğmənin atmır daşını,
Görürsən kim isə oxuyur pəsdən.
Budur rəqqasə də onun başını
Çara pay gətirir məcməyi üstə.
Orda dar ağacı qurulub hazır
Ötkəmlik üstündə çəkilir dara.
Burdasa şerinə bir damğa basır
Min ləkə yaxırlar bir sənətkara...
Mən də oxuyuram, amma heç vədə
Susdura bilməzsiz siz məni qəti!
Çox da ki, bomboşdu məhzun kilsə də
Çox da ki, pastor da yatıb qəfləti;
Ayin vaxtınacan gəzib çiməndə,
Qayıdıb qıfılda paslı açarı
Buraram. Qapılar açılan kimi,
Şəfəqlər qoynunda kilsə çəməndə
Qılaram öz ali ibadətimi.

Mənim bu yoluma uğurlar dilə,
Sən ey Dennitsanı dizə gətirən!
İzn ver, balaca mərhəmət eylə
Ömür kitabını varaqlayım mən.
Dayanıb qarşımda qoy yavaş-yavaş
Danışım – sözümdə olmasın yalan,
Deyim, içimizdə yük salıb təlaş.
Deyim, bu dünyada nədir sağ olan,
Deyim, hər ürəkdə qəzəb böyüyür,
O qəzəblə birgə – gənclik, azadlıq.
Ürəklər xalq ilə qoşa döyünür,
Atada əks olub oğullar artıq:
Bir nəslin xırdaca ara verməsi,
İkicə, ya üçcə arxa dönəni,
Olaraq bir yeni cins törəməsi
Aydınca göstərir zülmət dünəni:
Zəhmətkeş külüngün zərbəsi altda
Mədənlər içindən çıxaraq üzə,
Almaza çevrilir kömür həyatda –
Dünya qarşısında görünür gözə!
Dərində olsa da külçə damarı,
Külüng vur, heç demə yoruldum, yandım;
Sayrışır uzaqda almaz qatarı –
Parçala daşları, qəzəbli yambım!

*2 mart 1911*

## ÖLÜM RƏQSLƏRİ

### 1

Dözülməzdi sağlar içrə meyitin günü!
Nə lazımmış, nə gərəkmiş əyilib, sınıb
Mənsəb üçün cəmiyyətə dürtüb özünü,
Gizlədəsən sümüklərin şaqqıltısını...

Sağlar yatar. Xortdayaraq meyit qəbirdən
Gedər banka, məhkəməyə, bir də senata...



Qəlbdə qəzəb qaraldıqca – çıxar səbirdən,
Qələmləri xırçıldayıb salar səs-səda....

Məruzəyçün vaxt itirər hər gün havayı.
Xalq çəkilib iş saatı yetəndə sona,
Senatorun qabağında quyruq bulayıb
Bir ədəbsiz lətifəcik pıçıldar ona...

Axşam düşdü. Narın-narın yağış çilədi,
Yolçuların üstü, evlər batdı palçığa.
Meyit isə taksomotor aparır indi
Tamam başqa qəbahətə, rüsvayçılığa.

Frak geyib, bəzək verib meyit özünə,
Tələsirdi böyük zala – açıb qol-qanad.
İzdihamlı zalda isə onun üzünə
Gülümsünür gicbəsər ər, gicbəsər arvad.

Bütün günü cana gəlib məmurluğundan,
İndi batıb musiqidə sümük səsləri...
O özünü canlı kimi göstərib bu an
Əllərini sıxmalıdır tanış kəslərin!

Özü kimi bir meyitdi rəfiqəsi də.
Bax, indicə görüşəcək zalda gözləri.
Sən onların şərti – kübar bir ləhcəsindən
Eşidərsən ən insani, isti sözləri:

"Yorğun dostum, qəribədir zalın havası,
Qəbir soyuq. Gecəyarı. Nə hacət sözə!"
Bəli, dəvət etmədiniz NN-li valsı
Çalınanda... deyən o qız vurulub sizə..."

NN isə bir tərəfdə durub bu zaman
Onu, onu axtarırdı – gözündə maraq.
Çöhrəsindən bakirəlik, gözəllik daman
Qızın qəlbi döyünürdü heyran olaraq...

Osa qızın qulağına üyüdüb tökür,
Canlıları şirnikdirən yağlı sözləri.
O dedikcə çiyinlərə qızartı çökür,
Baş əyilir və süzülür qızın gözləri...

Adi – kübar qərəzinin bal zəhərini
O yağdırır istehzayla qızın üstünə...
"Ağıllıdır! Gör necə də vurulub mənə!"
Qulağında bir cingilti səslənir yenə:
Qız nə bilsin bu saat, bu an
Sümüklərdi şaqqıldayan!

*19 fevral 1912*

## 2

Gecə, küçə, aptek, fanar,
Zərif, gücsüz, dumanlı nur.
Min il yaşa – nə xeyri var?
Bir axırı – sonu yoxdur.

Ölüb getsən –
Yönün bir də düşər geri,
Olar yenə hər şey təkrar:
Kanalın buz ləpələri,
Gecə, küçə, aptek, fanar.

*10 oktyabr 1912*

## 3

Pəncərədə tənha şam boş küçəyə nur saçır.
Ufuldayır yuxuda bir yəhudi əczaçı.
Venena[1] şkafının önündəsə bu ara
Skelettək bir qoca baxırdı dərmanlara
Köhnə, nimdaş plaşa bürüyüb üz-gözünü,
Əymişdi sümükləri şaqqıldayan dizini...

[1] Venena – zəhər (*lat.*)



Gəzdiyini tapınca şüşələr şaqqıldadı,
Kəllə düşdü yerindən... əczaçı qıqqıldadı.
Qalxdı... sonra başına çəkdi yenə yorğanı.
Qoca isə küçədə qadağalı dərmanı
Qorxa-qorxa fənərin işığında bu zaman
Gəzəyən qadınlara satırdı plaş altdan.

*Oktyabr, 1912*

## 4

Köhnə, nimdaş bir yuxu,
Hara qaçır fənərlər?
Orda yalnız qara su,
Orda yalnız uyğu var.

Bir kölgə ötdü tindən,
Ardınca – bir özgəsi.
Yaxa açıq... frakın
Qırmızıydı ilgəsi.

İkincisi – zirehli,
Qənirsiz gəlindimi?
Lələk, papaq, üz sarı,
Yeriyən ölüydümü?

Ulayır soyuq külək,
Zülmət çöküb aləmə.
Yuxarıda işıq var,
Cəhənnəmə!

Qatrantək qaradır su,
Əbədidir uyğusu.
Gəldi üçüncü kabus.
Bəs sən hara, sən
Ey kölgədən, kölgəyə sürüşən?!

5

Varlı yenə kefində,
Kasıbsa alçaldılıb.
Daş binanın damından
Solğun ay işıq salıb,
Sükut çökür otağa,
Kölgə salır çardağa
Dörd tərəfi qaraldıb,
Səbrləri daraldıb...
Əbəs olardı bunlar,
Olmasaydı əgər çar,
Bir də zalım qanunlar.

Axtarma heç bir zaman
Nə saf qəlbli bir insan,
Nə qızıl tac, nə dövran.
Gəlsə – suyla, quruyla,
Nadir fənər nuruyla
Gələr o.

Boynunda al yaylığı,
Bir gün qarşına çıxıb
Gülər o.

*7 fevral 1914*

* * *

Elə an olar ki, gülər üzünə,
Ömrün tufanları gəlməz eyninə,
Kim isə aşkarca baxar gözünə,
Kim isə əlini qoyar çiyninə...

Varlıq bir andaca çəkilər yoxa,
Dibsiz uçrumlara düşüb itərək.
Sonra uçurum üstən boylanıb baxar
Sükut, yeddi rəngli qövsü-qüzehtək...



Uyğulu-uyğulu bir nəqərat da
Qalxar hayandansa mübhəm, dəruni.
Tərpədib dindirər pünhan sükutda
Arfatək gərilmiş qəlb tellərini.

*İyul, 1912*

* * *

Hey dünyalar, illər uçar dəhşət ilə,
Kainat da baxar bizə dumanlardan,
Sən də yorğun, kor ürəyim durub elə,
Səadətdən söz açarsan zaman-zaman.

Hələ söylə bu səadət nədir, axı,
Axşam bağda, ya meşədə sərin mehmi?
Ya boş nəşə aləmində yaşamaqmı,
Ya şərabmı, ya ürəyə zülm etməkmi?!

Nədir axı bu səadət? Bircə anlıq,
Qayğısızlıq, rahat həyat, sakit yuxu?!
Ya boş nəşə aləmində yaşamaqmı,
Təzə uçuş, təzə fikir, təzə qorxu?!

Nəfəs dərdin... təhlükələr keçib gedər,
Sənə təzə zərbə dəyər bax o anda;
Ömür nədir, o, fırfıra deyil məgər,
Vızıldayar, uçar, qaçar bu cahanda?!

O sürüşkən fırfıradan tutub bərk-bərk,
Qulaq asıb vızıldayan səsinə biz,
Dəyişirik... səbəbini ağılsıztək,
Axtarırıq zamanda biz, məkanda biz.

Kim fırladır fırfıranın təkərini,
Bu boş səsin de əvvəli, sonu hanı?!
Bu nə dəhşət, nə vəhşilik, ver əlini,
Əziz dostum, biz unudaq bu dünyanı!

*2 iyul 1912*

## İLHAM PƏRİSİNƏ

Məlhəm zümzümədə nəğmə yağışı,
Qəza-qədərin də möhnəti vardır;
Xoşbəxtlik nifrini, tale qarğışı,
Müqəddəs ayinlər lənəti vardır.

Elə cazibəli gücsən, qüvvəsən
Hazıram qoşulum elin sözünə;
Hüsnünlə aldadıb mələkləri sən
Guya endirmisən bu yer üzünə.

İnamı salandan bir gülünc hala
Başının üstündə alışır fövrən,
Bozumtul-qızılı bir rəngə çalan,
Haçansa gördüyüm o solğun dövrə.

Yaxşısan, yamansan? – Eh, hər nəsənsə,
Çox gözəl deyibdi haqqında aləm:
Özgəyə – sən ilham, möcüzəsənsə,
Mənə – həm əzabsan, həm də cəhənnəm.

Bilmirəm heç niyə həmən dan üzü
Taqətdən düşəndə ölməyib qaldım?
Nə üçün hüsnünə sataşdı gözüm,
Yalvarıb mən səndən təsəlli aldım?

İstəyirdim olaq biz qan düşməni,
Bəs niyə bəxş etdin, mənə sirrini –
Ulduzlu torpağı, güllü çəməni –
Gözəlliyin bütün lənətlərini?

Şimal gecəsindən daha məkrli,
Qaraçı eşqindən gödək, sehirli,
Həm daha məst idi, həm daha dərin
Sənin o dəhşətli nəvazişlərin...



Müqəddəs qanundu, hökm edir pünhan,
Tale sevincidir, bəlkə də bir az,
Könlümü oxşayıb belə ovudan
O yovşan ətirli acı ehtiras!

*29 dekabr 1912*

* * *

Dünyada tək-tənha qaldıq ikimiz,
Oturaq sakitcə bir bucaqda biz.

Bu isti otaqda küncə sığınaq,
Baxaq oktyabr qaranlığına.

Yenə uzaqlarda yanır işıqlar,
Əzizim, qocalıb olduq bəxtiyar.

Nəyimiz vardısa, qaldı arxada,
Ağrı da, acı da. Önə baxma ta.

Elə baxırsan ki, sanki gözlərin,
Gözləyir qabaqda təzə xəbəri.

Nəğməkar mələyi gözlərsən, yoxsa?
Ömür də bir çaydır, qayıtmaz – axsa.

Divarlar, kitablar, bir də ki günlər
Həmin, həminkidir, ey dost, nə qədər!

Heç nə gözləmirəm, batmıram qəmə,
Qayıt da demirəm ötən ömrümə.

Amma əvvəlkitək, budur, yenə sən,
Sədəf muncuqları sapa düzürsən.

Yenə o vaxtkıtək... yadında varmı,
O ötən günlərə bir gün çatarmı!?

Bclə ha deyildin cavanlığında,
Sapın əlvanını seçərdin onda.

Əllərin görünməz olardı, nədən?!
Barı əlvanını seç ki, indi sən,

İynəyə taxanda – bircə anlığa
Sapın qalib gəlsin bu qaranlığa...

*19 oktyabr 1913*

* * *

Belə bir oyun var: girib gizlicə
Yuxuya verəsən ayıq diqqəti.
Gözlərin ovunu axtara, seçə,
Bir kəsin xəbəri olmaya qəti.

Nə qədər key olsa izlənən adam,
Diqqətli nəzəri duyar yenə də.
Duyar, o baxışlar gəzgikcə müdam
Titrək dodaqlarda, zərif çənədə.

Amma tezcə duyar bunu başqa kəs,
Əsər çiyinləri, əli, ayağı.
Çevrilib boylanar – heç nə görünməz,
Di gəl ki, çoxalar narahatlığı.

Qorxudu, dəhşətdi pünhan baxışlar,
Onu baxan yerdə tutmaq çətindi;
Duyur, hiss edirsən – sənə baxan var,
Kimin gözləridi? – di gəl seç indi.



Nə şəxsi mənfəət, nə eşq, nə qisas
Uşaq oyunudu bu oyun-sirr də.
Adamlar bir yerə harda yığılsa,
Gizli xəfiyyə var mütləq o yerdə.

Vaxt olur özün də bilmirsən, düzü,
Adicə bir şeyə aciz qalırsan:
Sən adam içinə gələndə özün,
Gedəndə bəs niyə özgə olursan.

Vardır yaman göz də, lap yaxşı göz də,
Nə yaxşı izliyə səni, nə yaman;
O qədər güc var ki, hər birimizdə –
Ziyadə, gizlicə qaynayan ümman...

Biz ölçə bilmərik səni həyatda
Min illər keçsə də, ey qəlb kədəri.
Amma eşidərik bir lal sükutda
Küylü uçuşunu planetlərin.

Məchul bir zamanda yaşayıb belə,
Bilmərik nələr var hələ geridə.
Odla oynayaraq uşaqtək elə
Yanır, yandırırıq özgələri də...

*18 dekabr 1913*

* * *

Axşamlar nə yaman artır həyəcan!
Çökür hər tərəfə sükut, qaranlıq.
Həyat yalvardıqca qovrulur vicdan,
Taqət də qalmır ki, canda bir anlıq
Soyuq pəncərədən Aya baxasan.

Nə isə çevrilir, dəyişir dünya,
Səhərlər qorxuram açam qəzeti.

Kim isə görünmək istəyir guya
Kim isə gəzinir – qəlbdə həsədi.
Bəlkə də dəyişən fikrinə uyar.

Döşəmə cıy-cıydı, yoxsa qonağın
Yuxusu qaçıbdı? Nə fərqi mənə?
Skripka eşqiylə gedib kabağın
Qulaq asa-asa cılız səsinə
Şərab vuracağam sübhəcən yenə!

Ömrü başa vurmaq – onsuz da çətin...
Yalan təbəssümlə, ayıq halında
Bəs etməz heç kəsin gücü, taqəti;
Elə təbəssüm ki, yatıb dalında
Cənazə təşvişi, məzar möhnəti!

*30 dekabr 1913*

* * *

Dəlisov bir ömür keçir könlümdən:
Qəlbim – ölməzliyin məbədi olsun,
Dünyada nə varsa – əbədi olsun,
Yarımçıq nə varsa – tamamlayım mən.

Qoy ağır yuxular tutsun yaxamdan,
Qoy odlu nəfəsim təngisin gecə –
Bəlkə nə zamansa bir cavan oğlan
Məni vərəqləyib belə deyəcək:

Həzin kədəri də könlü isidir –
Axıb damarından sevincqarışıq.
O ki azadlığın təntənəsidir,
O ki başdan-başa işıqdır, işıq...

*5 fevral 1914*



* * *

Çulğaya könlümü çılğın bir həyat,
Elə bir həyat ki, çılğın sənəti
Cansıza can verə, canlıya – qanad,
Yoxu var eyləyə, varı – əbədi!

Çöküb sinəm üstə ağır yuxutək
Mənim nəfəsimi həyat kəssə də,
Kim bilir, bəlkə də bir vaxt gələcək,
Kimsə yad edəcək məni bir vədə:

Əfv edək ondakı zəhmi, inadı,
Üzündə gizlənən qəlbin səsiydi;
O, tamam – nur oğlu, xeyir övladı,
O, tamam azadlıq təntənəsiydi!

*5 fevral 1914*

* * *

Məhəbbət azaddır, quş kimi azad,
Dünya dağılsa da səninəm, sənin.
Dəxli yox, yuxuma girəcək hər vaxt
O qəddin, qamətin, o od bədənin.

Taleyim, həyatım, ömrüm, güzarım,
Sənin əlindədir, sənin əlində,
Bu sərsəm, bu hədər ehtiraslarım,
Mənim bu yuxusuz gecələrim də,

Səni ötəcəyəm, səsini hökmən,
Bir gün çatdıraram göylərə, inan.
Əllərimdən silə bilməyəcəyəm
Ruhunu, ətrini, Karmen, heç zaman.

Bir sakit gecədə, gizlicə, pünhan,
Sən oda, alova bürünəcəksən.
O ağ dişlərinlə parlayacaqsan.
O ağ bədəninlə görünəcəksən.

Bir dəli həsrətlə yaşayıram ki,
Sən yad torpaqlarda, qərib ölkədə
Adımı bircə yol çəkəsən təki,
Məni yad edəsən bir yol bəlkə də...

Bu çağlar, narahat həyat eşqinə
Xəyanət eşqinə, imdad eşqinə,
Bu sərt fikirlərim gəzsin aləmi,
Adi yollar təki, ağ yollar təki,
Karmen, uzaq olan mənzillər kimi...

*28 mart 1914*

## QADIN

*Avqust Strinberqin xatirəsinə*

Min cür əzabını dadıb dünyanın,
Ölüm diləmişəm hər axşam-səhər...
Amma məqamında əlim dayanıb,
Budur yaşayıram – üzümdə kədər.

Yazda qəbristanı gəzdiyim zaman,
Kiçik bir təpəcik çıxdı qarşıma.
Düşündüm: sahibi məlum olmayan
Qəbir bilsin nələr gəlib başıma.

Günəş üfüqlərdə qürub edəndə,
Gül-çiçək gətirdim o qəbrin üstə.
Başqa bir nəfərsə gəzinib gendə,
Məni bir an belə qoymurdu gözdən.



Qəfil qarşılaşdı gözümüz həmən,
Baxırdı diqqətlə, həlim, mehriban.
Yox, yox! Tənha idim bu dünyada mən!..
Odur ki, çevrilib ötdüm yanından.

Kədərli çöhrəmin, qəmli çöhrəmin
Yorğunluğunamı vurulmuşdu o?
Üzümdən yazıqlıq yağırdı yəqin?
Yoxsa tənhalıqdan yorulmuşdu o?

Qoy ona göz yumum göz yumum, çünki
Qaməti ucadır, görkəmi həzin.
Bu kədər, bu qüssə araya çöküb,
Bizi bir-biriylə birləşdirməsin.

Mən onu görürdüm, duyurdum hisslə,
Gəlib kürəyimə dirəndi birdən...
Elə istəyirdim acıqla, hirslə
Onu öz başımdan rədd eləyim mən, –

Bütün var gücünü toplayıb birdən
Əzab çəkə-çəkə dindi güc-bəla:
"Məndən çəkinməyin! Burda qəbirdə
Uyuyan balamdı, doğmaca balam".

Ondan üzr istəyib mən dönə-dönə
Başımı aşağı əydim kədərlə,
O isə gülləri uzadıb mənə
"Buketiniz qaldı", dedi qəhərlə.

Dedim: "Balanızın məzarı üstə
Qalsın bu görüşdən bir xatirə tək".
O çəkib çiynini, dilləndi, pəsdən:
"Sizinçün daha çox vacibdi çiçək!"

Bəli, mən anladım: günahım nədi,
Boynuma alsam da təəssüfümü,
Amma bağışlaya bilmərəm qəti
Onun istehzalı təbəssümünü.

*Avqust, 1914*

* * *

Abırın, həyanın atıb daşını
Vaxtın hesabında batıb itəsən.
Sonra da götürüb xumar başını,
Allah məbədinə varıb gedəsən.

Üç yol baş əyəsən doğma düzlərə,
Yeddi yol çəkəsən xaça özünü;
Sonra da pünhanca o kirli yerə
Sürtəsən alışıb yanan üzünü.

Boşqaba atanda mis qəpikləri
Bitib tükənməyə sayların sonu:
Hər gün yeddi dəfə çevirib bəri
Öpəsən öpülmüş qədim ikonu.

Evə qayıdanda o mis qəpiyə
Kimisə aldatmaq məqamı yetə;
Acından qapıda yatıb şöngüyən
İti də təpiklə qovasan gedə.

İkona yanında şamın nuruna
Tapasan hesabın nəticəsini.
Selikdən islanan kuponlarına
Açasan kamodun siyirtməsini.

Sonra da şellənib pərqu yataqda
Bir ağır yuxuya batasan yenə...
Ey mənim Rusiyam, lap bu sayaq da
Sən bütün ellərdən əzizsən mənə.

*26 avqust 1914*



* * *

Sən hamıdan vəfalıydın – gözəl, qəşəng.
    And eləyib bərkə çəkmə, gəl, yarı.
Ötən güntək, ya qaraçı mahnısıtək
    Uçub gedir gənc ömrümün qatarı.

Sevdiklərim məndən ötrü, hey yan gəzdi
    Durub yolun məchulluğu qarşıda.
Uğurludu, mübarəkdi, silinməzdi,
    Dönülməzdi, yenilməzdi... bağışla!

*31 avqust 1914*

* * *

Hamıdan gözəl idin,
        hamıdan etibarlı,
Daha dil tökmə mənə
        daha yalvarma mənə.
Qaraçı nəğməsitək
        uçur ömür qatarı
Sovuşan günlərimtək
        çətin geriyə dönə.
Keçdi, getdi, ötüşdü,
        nə ki, qəlbə əzizdi.
İrəlidə naməlum yollar
        durar bağışla.
Xeyir-dua verirəm,
        unudulmaz əzizim
Cavanlıq nə hay verər,
        nə qayıdar bağışla.

*31 avqust 1914*

## MƏHKƏMƏDƏN ƏVVƏL

Başını nə yaman salladın yerə?
Utanma, yenə də üzümə dik bax!
Atıb namusunu, gör, birdən-birə
Nə kökə düşmüsən sən alçalaraq.

Mən də dəyişmişəm; vüqarlı, təmiz,
Əlçatmaz mən hara, indiki hara?!
Həm açıq ürəklə, həm də ümidsiz
Baxıram cansıxan, qəmli yollara.

Səni danlamağa ixtiyar nədi,
Gücüm nə yoxdu ki, nəsihət verəm;
Çox-çox qadınların axır qisməti
Məkirli, əzablı bir yola görə...

Özgələrdən artıq bələdəm axı
Sənin həyatına, sənin ömrünə.
Cızığdan nə üçün kənar çıxmağın
Hakimdən daha çox məlumdu mənə.

Axı bir zamanlar hər ikimizi
Birgə çıxarmışdı yoldan ehtiras.
İstəyirdik atıb bu yükümüzü,
Qalxıb səmalara ucalaq bir az.

O vaxt deyirdin ki, qoy yana-yana
Birlikdə alışıb külə dönək biz.
Girsək bir-birinin od qucağına,
Müqəddəs anları görər gözümüz...

Nə etmək, nə lazım artıq göz yaşı,
Bizi bu arzu da aldatdı, heyhat.
Nə etmək, qamçıyla hər addımbaşı
Bizi zalım-zalım döyübsə həyat?



Ömrün nə vecinə, ömür tələsən...
O gedib, sən yolda qalmamısanmı?
Bəyəm heç olmasa, bircə dəfəsə
Mənimlə bəxtiyar olmamısanmı?

Qızılı saçları od ehtirasın,
Qızılı rənginə çalanım mənim!
Bağışla, dinsizim, unudulmazım,
Bağışla beyni boş olanım mənim!

*11 oktyabr 1915*

* * *

Dərin-dərin qəbir qazıb basdırarlar
Yaşıl təpə boy göstərib baxar bizə.
Eşidərik uzaqlarda yağış yağar,
Eşidərik bahar gəlib dağa, düzə.

Durub heç nə soruşmarıq artıq daha
Yuxulardan ayılarıq ağır-ağır,
Sükutdursa payız gəlib bu dünyaya,
Aləm coşub-çağlayırsa yaz çağıdır.

Mürgüləyən bu səslərdə heç bir zaman,
Nə azacıq sevinc olar, nə də kədər.
Məhəbbətin, ayrılığın əzabından,
Bizi ancaq ölüm alıb xilas edər.

Gəl düşünək, dəyər min yol düşünməyə,
Tələsməyək, burda böyük həqiqət var;
Hey mənalı, hey mənasız həyat deyə,
Görən axı nə istəyib bu insanlar?!

*18 oktyabr 1915*

* * *

Zarafata saldın əvvəl hər bir şeyi,
Zarafatla yırğaladın hey başını.
Birdən coşdu tənə çayın, qəlb gileyin,
Təmizlədin seltək axan göz yaşını.

Qəh-qəh çəkdin hey ağardı ağ dişlərin,
Olan şeylər yaddan çıxdı dedim yəqin.
Kədərləndin xatırlayıb keçmişləri,
Sancaqları stol üstə səpələdin.

Sonra məni ələ salıb dönüb getdin,
İntizarla geri baxdın, tutqun, kövrək;
Lənətlədin, hər bir şeyi danıb getdin,
Qayıtmadın əbədilik getdin demək.

İş görməli, hər bir şeyin canı işdi,
Görməliyəm mən öz köhnə işlərimi,
Doğrudanmı, ömür, həyat ötüb keçdi,
Ötüb keçdi əynindəki o don kimi.

*29 fevral 1916*

## ÇALAĞAN

Çalağan qalxıb göy asimana,
Hey dövrə vurur biçənək üstə,
Körpə oğlunun daxmada ana,
Layla oxuyur beşiyi üstə.

Əsrlər keçir, gurlayır dava.
Qalxır üsyanlar, yanır el, oba,
Ana diyarım, yurdum, sən elə,
Gözüyaşlısan qədimdən elə!
Çoxmu analar qəm dadacaqdır,
Çalağan çoxmu fırlanacaqdır?!

*22 mart 1916*



## PUŞKİN EVİNƏ

Bizim Akademiyada
Puşkin Evi – iti bir göz.
Anlamlıdır, dost-doğmadır
Ürəyimə yardır bu söz!

Bu söz – qədim Sfinks kimi
Mənalıdır, qanadlıdır.
Tərpənməz at belindəki
Çapıb gedən tunc atlıdır.

Bu söz – çayda buzqıranın
Təntənəli məğrur səsi,
Uzaqdakı gəmilərin
Bir-biriylə səsləşməsi.

Sirli Neva üzərində
Ehtiraslı qəmimizlə –
Qara günü ağ gecədə
Qarşıladıq yanar hisslə.

Necə odlu üfüq gördü
Çay boyunca gözlərimiz.
O günləri çağırmadıq,
Gələcəyi səslədik biz!

Ötürüb əzablı günün
Müvəqqəti yalanını,
Vaxtlı gördük istiqbalın
Mavi-qızıl dumanını.

Puşkin! Gizli azadlığı
Vəsf elədik səndən sonra.
Çətin gündə kömək elə
Bizim səssiz vuruşlara.

Nəhs illərdə ilham verdi
Sənin şirin nəğmələrin.
Puşkin, sənin gur sevincin
Qovmadımı dərdi-səri?

Bax, bununçün deyirəm ki,
Puşkin Evi – iti bir göz,
Bax, bununçün dost-doğmadır,
Ürəyimə yardır bu söz.

Bax, bununçün qürub çağı
Çəkilərək bir yana mən,
Bəyaz Senat meydanından
Baş əyirəm hey ona mən.

*11 fevral 1921*





## QİSAS

*(Poemadan bir fraqment)*

Atanın taqəti qalmayab daha,
"Güllü xiyaban"da düşüb yatağa,
Oğulsa qatarla şaxtada, qarda
Yol gəlir, ayrılıb doğma diyardan...
Yol boyu – ləhcələr, fənərlər, relslər,
Saysız jandarmalar, əbədi pyeslər,
Və birdən – səhərin xəstə şöləsi,
Və birdən – Polşada rus məhəlləsi.
Olanın, qalanın hamısı burda
Qisas xülyasıyla baxır bu yurda;
O bomboş sahəni ucadan süzüb,
Qisasla boylanır Kopernik özü.
Dinib Varşavanın uca tağında,
Qisas! Qisas! – deyir soyuq çuğun da.
Elə bil Pan-Moroz at çapır, bir bax,
Qanlı mahmızını şaqqıldadaraq...
Havalar yumşalıb: sarımtıl səma
Bir az parıltılı gəlir adama.
Azca ürəklənib, olub xoşnəzər,
Daha cazibəli baxır panilər...
Amma əvvəlkitək bu göy də, yer də
Qərq olub əbədi kədərə, dərdə.
Təkcə Avropaya uzanan yollar
Polad relsləriylə bərq vurur par-par.
Vağzalda zir-zibil basıb hər yeri,
Məkrli qasırğa qucub evləri.
Elə bil türmədir Visla körpüsü;
Ağır dərd üzsə də atanı, düzü,
İnanıb taleyə fani dünyada
Əcaib şeyləri gətirir yada:
Daşda çörək görmək istəyir indi,

Əcəl ayağında,
Ölüm çağında
Həyat nişanəsi gözləyir indi.
Bir solğun fənərdi solğun nəzəri,
Nəyisə axtarır – qəlbində pənah;
Gəlir xəyalına sənin səhərin,
Ey gözəl Polşanı unudan Allah!
Burda gəncliyiylə o, nə karədir?
Əsən küləklərdən umduğu nədir?
Payız yarpağını sürükləyərək,
Qatıb toz-torpağa, aparır külək!
Özüylə yorğunluq gətirir gecə,
Yuxuya qərq olur hər tərəf, hər yan.
Küçə adları da iyrəncdir necə!
Nəhayət, bax bu da "Güllü xiyaban!.."
Bu an təkrar olmaz bircə kərə də:
Yatır xəstəxana şirin yuxuda,
İşığı görünən bir pəncərədə
Çevrilib kiməsə boylanır ata...
Oğulsa... elə bil nəfəsi gəlmir,
Baxır, gözlərinə inana bilmir...
Sanki qat-qarışıq fəna yuxuda,
Ürəyi donubdur cavan yaşında.
Bir qara fikir də tutub yaxadan,
Nə qədər qovursa, çıxmır başından.
"Atam hələ sağdır... bir azca barı
Hüquqdan söz salıb yad Varşavada
Gərək tənqid edək hüquqsuzları!"
Amma alt-üst olur hər şey bir anda:
Əlbəhəl qapını axtarır oğlu
(Xəstəxananınsa qapısı bağlı).
Yetirib əl atır o, zəngə sarı,
Əynində yolların kiri-pasağı
Qalxır qaça-qaça pilləkənləri
Üzündə nə acı, nə həyəcan var,
Titrəyir, yox olur gözündə şamlar...
Kəsib qabağını bir cənab bu an,



Süzüb ciddiyyətlə soruşur ondan:
"Mərhumun oğlusuz?" "Bəli, oğluyam!"
(Cənabın görkəmi dəyişir tamam.)
"Buyurun... Bax orda... düz saat beşdə..."

Quru cəsəd idi ata tabutda,
Burun da əyilib donqarlaşmışdı.
Bu özgə otaqda, bu dar sükutda
O əzik yatağı görən alışdı.
Görünür həkimə hazırlaşırkən
Mərhumun yox imiş zərrə tabı da.
Saralıb, yıxılıb, süst düşüb həmən.
Oğul boylananda açıq qapıdan
Elə bil deyərdi sakit baxışı:
"İndi o dünyada dincəlir yaxşı..."
(Kim isə dayanıb oğulla bahəm
İçəri baxırdı... otaqda bu dəm.
Şamın şölələri əyilib bəri
Sanki titrəyərək dada çatırdı:
Saralmış sifəti, dar çiyinləri,
Bir də tuflilələri işıqlandırdı.
Sonrasa düzəlib, qalxıb şölələr
Salırdı divara zəif kölgələr...)
Oğul düşünürdü zülmət gecədə:
"Bəs hanı, hardadı əcəl bayramı?
Sakitdir atamın üzü necə də.
Bəs hanı fikrinin zəhərli tamı?
Bəs hanı üzündə dəhşət qırışı,
Ehtiras, çılğınlıq, möhnət qırışı?
Əcəlmi süpürüb silib onları?"
Hamı yorulmuşdu. Düz gecəyarı
Təkcə oğul qaldı mərhumla birgə,
Qaldı ki, atanın sağ əlindəki
Üzüyü çıxarıb qoparsın bəlkə.
Çalışdı, əlləşdi, bir quldur təki...
(Təcrübə yox idi, bilmirdi ancaq
Çətindi ölünün əlini açmaq.)
Mərhumun döşünə təpdi dizini,

Kölgələr bürüdü ölü üzünü...
Taqətsiz barmaqdan üzük sürüşdü,
Sonra diyirlənib tabuta düşdü.
Didərgin atanın yanıb halına
Oğul xaç çevirdi soyuq alnına;
Düzəldib əlini, surəti, şamı,
Əyri çiyinlərə salıb bir nəzər,
Çıxanda bu oldu oğul kəlamı:
"Qal, özün bilərsən, Allahın bilər!.."

Atanı sevirdi o vaxt gözgörə –
Birinci, bəlkə də, sonuncu kərə –
O yaslı, kədərli vida çağında
Həyatın bu sonsuz yavalığında...
Ata elə sakit uzanmış idi,
Bir çəngə saçı da pırtlaşıq idi.
Mübhəm bir həyəcan baş aparırdı,
Burun əyilirdi, göz qapanırdı.
Zavallı təbəssüm üzdə ən azı
Əyri göstərirdi açılı ağzı...
Di gəl ki, çürümə – gözəllik oldu
Bir izaholunmaz qələbə çaldı...
Bu cür gözəlliklə sanki bu andan
Saysız təhqirləri sonsuz cahanda
Unudub gülürdü təlaşa, vaya,
Bu hərbi qaydalı vidalaşmaya...
Qara camaatsa yanırdı üzdə,
Nitqlər söylənirdi cənazə üstə;
Bir qadın gül qoyub titrəyən əllə
Donqar çiyinləri gizlətdi güllə.
Tabutun qapağı enəndə o dəm
Qurğuşun tökdülər, bağlandı möhkəm.
Sonrasa üzlərdə kədər buludu,
Kilsə eyvanından alıb tabutu
Aparıb getdilər, salıb basrığa
Vıy-vıy vıyıldadı qarsız qasırğa.
Küləyə qoşulub ulardı çöl, düz,
Yerini gecəyə verirdi gündüz...



Şəhərdən çıxanda dəfn izdihamı
Dolanıb baş çəkdi neçə meydana.
Cənazə ardınca gedirdi hamı
"Azadlıq" adlanan məzarıstana...
Bəli! Bu dünyada nə vaxt desəniz
Azadlıq mahnısı eşidirik biz:
Torpağı eşəndə bir qəbirqazan.
Ya türmə qapısı açılan zaman,
Xəyanət edəndə kişi qadına,
Qadın xal salanda namus adına.
Elə ki insani hüquqlarımız
Ayaqlar altında tapdanır haqsız,
Mənfur faizləri kapitalların
Buxova saldıqca idealları
Qapalı mənzildə gizlicə, şəksiz,
Söyəndə qanunu, nazirləri biz
Azadlıq desək də... görür adamlar
Təkcə qəbristanda asudəlik var.
Dəfn mərasimi yetəndə sona
Qoşulub zənglərin uğultusuna,
Qarğalar fərəhlə qarıldaşırdı...
Ömrünü yandırdı zavallı ata.
Onun qəbri üstə bir azdan hətta
Günün şəfəqləri parıldaşırdı...

Oğul baxa-baxa qəlbi əsirdi,
Bu sarı qəbirdə nəsə gəzirdi.
Hər şey sayrışaraq bu yer üzündə
Əriyib itirdi onun gözündə.
Əzablı üç günün – hərəsi bir il!
Soyuyub donurdu qanı elə bil...
Səbəb havadımı? Bayağılıqmı?
Oğul sevgisimi? Ya bəd qılıqmı?
Dirçəlib qəlbində bayaqdan bəri
O acı uşaqlıq xatirələri –
Gördüyü bu olub ağlı kəsəndən:
Ata uzaq gəzib onun gözündən.
Yaşayıb hərəsi ayrı şəhərdə

Yalnız təsadüfən görüşüb hərdən,
Həmişə yad olub, yad da qalıblar
(Ən ülvi hisslərlə doğma olublar).
Qonaqtək gəlibdi oğul yanına,
Gözləri qızarmış, beli bükülmüş.
Sanki zəhər damıb ata qanına –
Sözündə həmişə kinayə, gülüş...
Körpənin qəlbini didib dalayıb
Arsız düşüncəsi, həyasız ağlı.
Oğul xəyalını çirkə bulayıb
(Xəyalsa bakirə, cavan, maraqlı...)
Hərdən can ağrıdan bu davranışla
Ara söhbətləri can sıxan zaman,
Mehriban, qəribə, sirli baxışlar
Zillənib oğula gizlicə, pünhan...
Oğul xatırlayıb gətirir yada:
Uşaq otağında əyləşib ata,
Acıqlı-acıqlı papiros çəkir,
Oğul şıltaqlıqla yüyürür, səkir;
Atanın bu hirsli, acıqlı çağı
Qəfil dirsəyinə dürtür sancağı,
Yerindən atlanıb qışqırır ata...
Həmin qışqırıqdan qopan o səda
İndi də səslənir məzarıstanda,
Ayılır xəyaldan oğul bu anda...
Dünya gözlərində dəyişir tamam,
Külək vıyıldayır, əsir izdiham.
Qoca qəbirqazan əlində kürək
Doldurur məzarı təpələyərək.
Bir qadın hönkürür, hönkürtüsündə
Hüznlü nur da var, nurlu hüzn də.
Yoxdu bir tanıyan amma özünü
Matəm duvağıyla örtüb üzünü...
Orda nə gizlədib, görəsən, xəlvət?
İlahi gözəllik, ya qoca sifət?
Duvaq arxasında çökük yanaqlar
Göz yaşı axıdır peydər, biqərar.
O vaxt palatada oğulla birgə



Tabutu gözləyən bu imiş bəlkə?
Qadın birdən-birə duvağı atdı,
Dövrədə adamlar hamısı yaddı...
Torpağa gömülüb heyf oldu ata:
Ona körpəlikdən nə verib tale?
Böyük Floberdən irs aldı o da
Bir *Education sentimentale*[1].
Canı qurtaranda ehsandan, yasdan
Atanın evinə yollandı oğlan.
Gəlin, biz də gedib göz yetirək bir –
Onun son günləri necə keçibdir?
Görək gözümüzlə (daha bu qədər
Şairlər dünyanı mədh etməsinlər!)
Oğul içəriyə baxdı bir anlıq,
Mənzil rütubətdi, həm də qaranlıq...
Atanın qəribə aləmi olub;
Hamı da ataya bir cür baxırdı.
Keçib güzəranı həsrətlə dolu,
İndi hər əşyadan həsrət yağırdı.
O həm professor, həm dekan imiş.
Getdiyi ən ucuz restoran imiş,
Olsa da nə qədər elmi xidməti,
Nökər saxlamayıb ömründə qəti.
Küçəylə qaçarmış suyu süzülmüş,
Baxanlar sanarmış bir ac köpəkdi.
Əynində kürkünün boynu üzülmüş
Deyərdin bu nimdaş nəyə gərəkdi.
Qapqara şpallar üstündə hərdən
Görənlər olubdu oturduğunu.
O, burda alarmış yorğunluğunu.
Keçmişə dikdiyi donuq nəzərdə
Yada gətirərmiş ötən günləri.
Ömründən-günündən itən günləri;
İlləri ötürüb isti paltarda.
Soba qalamayıb soyuqda, qarda.
Düşüb qalaqlanıb evində nə var –

[1] Hisslərin tərbiyəsi – Floberin romanında başlıqdır.

Kağızlar, parçalar, kirli pal-paltar,
Papiros qutusu,
Çörək qutusu,
Vərəqlər, lələklər, eh nələr, nələr,
Qohumlar, xanımlar yazan namələr,
Hətta o şeylər ki, mən əbəs yerə
Salmaq istəmirəm adını şerə.
Nəhayət, bunu da qoy deyim axı,
Burda Varşavanın zəif işığı
Azca nurlandırdı hey kiotları
Bir də ki, "mənəvi" hesabatları...
Gənclikdən zəhləsi gedərək belə
Ömrünü-gününü vermişdi yelə.
Haçansa bu Faust radikal idi –
"Sağçılıq" edirdi axır zamanlar.
Artıq zəifləmiş, xəstəhal idi –
Yadından çıxmışdı bütün olanlar.
Ömrün istisinə isinmir, hətta –
Acı tüstüsünə kor olur gözü.
Onunçün eyniydi artıq həyatda
"Azadlıq" sözüylə "yəhudi" sözü.
Təkcə musiqiydi yeganə hayan –
Ağır xəyalları silkib oyadan:
O dil-dil ötənlər susurdu indi;
Gözəllik olubdu hər tör-töküntü;
Qalxıb düzəlirdi hər əyri qamət,
Qiyamət qoparır royal, qiyamət –
Heç vaxt görünməmiş sədalarıyla
Ehtiras oyadır, qüssə oyadır.
Həyalı dərdləri, qadalarıyla
İşıqlı bir qəm də haraya çatır.
Bizim bu müasir qart Qarpaqon da
Özü öz ağlıyla vərəm qazanıb,
Nəhayət, bu böyük, zəngin cahanda
Ucuz bir yatağa düşüb uzanıb...

Beləcə, xəsiscə yaşayıb ata,
Nə Allah salıbdı, nə bəndə yada.



Yurdsuz köpək kimi, küylü şəhərdə
Özü də unudub özünü hərdən.
Oğulsa, görübdü bir ayrı anlar,
Qalıb yaddaşında həmin zamanlar!
Qüssəli, xiffətli, qəmli çağında
Nadir ehtiraslı qəlb otağında
Kədərli bir dühə qanad çalıbdı;
Qəlbində bir elə qovğa salıbdı
Şumanı dindirib hirsli əlləri,
Duyub kürəyində əsən yelləri...
Dinib kor qəlbinin kor hekayəti,
Qoşa qanadları sınıq xilqətin
Vahimə doğuran iri gözləri
Qaranlıq içindən baxıb közərib...
Bu hiss sezilibsə kimin canında –
Seçilib daima insan yanında:
Tanınmış bir şair olduğu vaxtdan
Onu da çulğayıb çöldə, otaqda;
Kar olub, kor olub, həm də ki, dilsiz,
Bir tanrı uyuyub ürəyindəcə.
Böyük Vrubeli üzən o İblis
Könlünü talayıb onun hər gecə.
Çox şeyi dərk edib saldıqca yada,
Gecələr qərq olub zülmət xəyala:
Hər gün mərhəmətsiz, soyuq röyada
Gördüyü bu olur: "Ağıldan bəla".

Belini qırdıqca zülmün inadı,
Ağrıdan, acıdan dərd çəkə-çəkə,
Mələk tək yanına düşür qanadı,
Qadıntək abrını itirir ölkə.
Susur, dinməz olur xalqın dühası,
Bir hay verməyə də çatmır illəti.
Zülmün əlindəcə qalır yaxası,
Çöllərdə didərgin olur milləti.
Gecə sübhə qədər hey yana-yana
Reneqat oğluna ağlayır ana,
Ata da yağlayır yağı düşməni.

(Onların itməli nəyi var yəni?)
Oğulsa Vətənə dönük çıxıb, ah,
Şərab süfrəsində qoşulub yada...
Yel də pəncərəni taqqıldadaraq,
Səsləyir vicdana, bir də həyata...

Varşava! Varşava! Andım adını,
Məğrur polyakların ulu şəhəri!
Səni də beləcə unutmadımı
O pozğun, həyasız rus əsgərləri?
Həyat marıqdadır, küncdə, bucaqda
Maqnat sarayları susubdu hələ.
Geniş düzlər boyu təkcə Pan-Şaxta
Səyridir atını belədən-belə.
Qudurğan-qudurğan görünüb hərdən
Başımız üstündə onun çal başı,
O sallaq qolları dartılıb birdən
Tufantək titrədir torpağı-daşı.
Atı kişnədimi – kişnərti artır,
Teleqraf telində dinir sədası.
Pan da qeyzə gəlib cilovu dartır,
Çovğun sədasına dönür sədası.
Şaxtalı nalların tappıltıları,
Çovğunlu yolların guppultuları...
Yenə də qərq olub qəmə-kədərə,
Pan-Şaxta başını əyərək yerə
Çapdıqca acıqlı kəhəri üstə
Qisas! Qisas! – deyir qanlı mahmızı...
Dinir Varşavanın göyləri üstə,
Çuğun mahmızların əks-sədası!
Hələ işıqlıdır kafelər, barlar,
Bədənlər satılır "Yeni dünyada".
Qaynaşır həyasız trottuarlar
Yoxdu döngələrdə həyatdan səda...
Vıy-vıy vıyıldayır küləklər orda
Göylər sıxıldıqca, tökülüb qar da
Batırıb həyatın gurultusunu,
Fırlanıb, fırlanıb yollar uzunu



Sakit xışıltıyla yatır yerlərə,
Qaranlıq içində bərq verə-verə.
Əziz qəhrəmanım, bu ədəbi qar
Səni də yaxalar, səni də haqlar.
Atanı tapşırıb qürbət torpağa
Üzündən, gözündən qəm yağa-yağa
Gəzib vaxt itirdikcə sən əbəs yerə
O xəstə, şəhvətli izdiham içrə...
Artıq nə hissi var, nə də xəyalı,
Bomboş bəbəklər də – solğun ziyalı.
Didərgin ömrdə yorğun düşərək
On il qocalıbdı elə bil ürək.
Zəif bir fənərin solğun işığı
Azacıq nurladır gur qaranlığı.
Kim isə yamsınıb tindən çıxaraq
Arsız bir qadın tək iməkləyir, bax...
Yanıq bir həsrətlə sıxıldı ürək ,
Yamsınıb, sürünüb gəldi yaxına.
Onu, ağır əllər köhnə tanıştək
Tez yerə uzadıb basdı bağrına...
O indi tək deyil, tək deyil daha,
Təzə tanışı var, onun bu gecə.
Onları qol-boyun aparır dağa
"Krakov civarı" adlanan küçə;
Budur Visla çayı – qarlı cəhənnəm...
Soyuqda dişləri əsdikcə zağ-zağ
Evlər arxasında gəzib sığıncaq
Yenə də geriyə qayıdır bu dəm...
Kopernik göylərə qalxıb az qala
Yenə qar altında dalıb xəyala...
(Yanınca bir həsrət yeriyib gedir,
Bilinmir rəqibdir, dostdur, ya nədir...)
Sağa çevrilərək oğul bu ara
Getdi ki, bir az da qalxsın dağlara...
Elə o andaca dirəndi, düzü,
Pravoslav kilsəyə sataşan gözü...
(Hansı bir oğrusa onu başlayıb,
Elə yarımçıq da qoyub, boşlayıb...)

Mənim qəhrəmanım silkib qarını
Tezcə yeyinlətdi addımlarını;
Tezcə də yorulub düşdü hənirdən
Canını titrətmə götürdü birdən.
(O necə titrətmə, necə azardı,
Onda yorğunluq da, həsrət də vardı...)
Qarla örtülsə də yolların çoxu,
Gəzib boş-boşuna haçandan bəri,
Nə dinclik bilmişdi, nə də bir yuxu,
Daha tərpənmirdi titrək dizləri...
Daha küləyin də səsi senirdi,
Varşava üstünə yuxu enirdi...
Bəs indi haraya getmək olardı?
Daha nə taqəti, nə gücü vardı;
Bu zülmət gecədə hayanı da yox,
Bu zülmət içində duyanı da yox!
Bir zülmət ələyib gözün dünyaya,
Ey gecə, daş olub sinəndə ürək;
Nə mərhəmət bilir, nə yetir haya,
İşıqları sönən o kor evlərtək!..
Göylər qar ələyir: bəyaz, əbədi;
Qışda kəfən kimi çönüb meydana
Örtüb basırsa da ölü cəsədi,
Yazda sel-su olub axar hər yana...
Mənim qəhrəmanım gedir biqərar,
Fikrində-zikrində – sayıqlamalar...
Gedir... (İzi qalır qarların üstə,
Amma əvvəlkitək qoşadı izlər...)
Səslər qulağını çəkdikcə dara
Qəfil qarşısına çıxdı bir hasar –
Sakson bağındakı sonsuz hasara
Yanaşıb söykəndi sakitcə, naçar.

İnsanlar, qayğılar, həsrət-gileylər
Səni bir bucağa alıb atanda;
Haçansa könlünü oxşayan şeylər
Ölüm yuxusuna gedib yatanda;
Hərdən vida deyib bomboş şəhərə



Ümidsiz-ümidsiz evə dönəndə;
Qrov töküldükcə buz kirpiklərə,
Gözün qapaqları yerə enəndə;
Dayan xəstə-xəstə bir anlığa sən,
Dayan qulaq kəsil qaranlığa sən.
Gündüzlər ağlına gəlməyənləri
Gecə sükutunda dinlərsən onda;
Tamam başqa gözlə baxar nəzərin
Ocaq tüstüsünə qarlı cahanda.
Görərsən, baxımsız bir buğda necə
Səhəri gözləyir zülmətli gecə.
Göylər də açılar sirli kitabtək,
O bomboş qəlbində şirin əzabtək
Yenidən canlanar ana surəti,
Oxşayar boyunu boyu, qaməti;
Fənərli şüşədə naxışlar belə
Qanını donduran şaxta, qar belə
Soyuq məhəbbətin, soyuq eşqində
O təkrarolunmaz bir an içində
Yenidən alışar şükran qəlbində
Şükür eləyərsən hər an qəlbində;
Duyub biləndə ki, bu sonsuz həyat
Brand təbirilə ölçülmür, heyhat.
Asandır *guantum satis*[1] söyləmək...
Dünyasa gözəldir həmişəkitək!

*30 yanvar 1918*

[1] "Mümkün qədər" (*lat.*) – İbsenin "Brand" dramında Brandın şüarı

## BÜLBÜLLÜ BAĞ

### 1

Lay-lay doğrayıram qaya dağları
Lilli bir sahildə çəkilmə çağı.
Didib qopardığım çalpanaqları
Daşıyır belində yorğun ulağım.

Dəmir yolunacan daşıyıb lal, kar,
Yenə üz tuturuq dənizə sarı.
Geri apardıqca bizi ayaqlar,
Başlayır ulağın anqırtıları.

Anqırıb hay salır soncuqlayaraq –
Axı boş qayıdır geriyə indi,
O yol kənarıyla uzanır bir bağ,
Həm yaşıl kölgəli, həm də sərindi.

Yaşıl bağ boyunca uca barıdan
Güllər salxım-salxım aşıb daşırlar.
Bülbülün cəh-cəhi susmayır bir an,
Sular, yarpaqlar da pıçıldaşırlar.

Bağın qapısına yetişincə biz
Anqırır ulağım, elə bil, qəsdən.
Bağda kimsə gülüb qəşş edir səssiz,
Sonra aralanıb oxuyur pəsdən.

Qulaq kəsilərək qəmli səsə mən,
Ulağı bizləyir baxıram elə:
O qızmar, qayalı sahilə çökən
Görünməz dalğalı səmavi tülə.



### 2

Qızmar gün əriyir, qalmır sorağı,
Qaranlıq sürünür kollar içindən.
Təəccüb eləyir yazıq ulağım:
"Nə fikrə getmisən, ey sahibim sən?"

İstidən, qızmardan çaşıbdı ağlım,
Yoxsa qaranlıqda gəlib xəyalat?
Durur gözlərimdə qapısı bağlı,
Əlçatmaz, ünyetməz uzaq bir həyat...

Qaranlıq küncündə bu dar külbənin
Axı mən zavallı nə gözləyirəm,
Bülbüllü bağdakı o yad nəğməni
Təkrar eləməklə hər saat, hər dəm?

Həyatın nifrini, saysız qarğışlar,
Dörd yanı hasarlı o bağa çatmaz,
Mavi toranlıqda bəmbəyaz paltar,
Şəbəkə çəpərdən görünür az-maz.

Qürub dumanında hər axşamçağı
Yolumu bu yerdən salıram elə.
O qız cəzb eləyir, çağırır axı
Həm zərif avazı, həm də rəqs ilə.

Bu çağrış haçansa yuxuya gedən
Mürgülü hissləri oyadır deyə,
Hicranı sevməyə başlayıram mən.
Vurulub hasarda keçilməzliyə.

### 3

Bir azdan külüngü söykəyib daşa,
Yorğun ulağımı açıb buraxdım.
Sevdalı könlümlə verib baş-başa,
Bürkülü gecənin seyrinə çıxdım.

Uzaq maviliyə uzanıb gedən
Tanış yol, daşlı yol bu dəfə yenə
Kölgəli barıya yan alıb həmən,
Bu gün daha sirli göründü mənə.

İçimdə qovrulub yandı həsrətim,
Saatlar əridi göz görə-görə.
Necə ağır imiş şehin siqləti,
Tikanlı güllər də əyildi yerə.

Düşündüm: xeyirmi, şərmi görərəm,
Çıxıb öz yolumdan yana burulsam?
Bağın qapısını döyərək bu dəm,
İçəri girməyə icazə alsam?!

Dünənim qəribə göründü axır,
Gördüm əllərim də soyuyub işdən.
Könlümə damdı ki, bülbüllü bağın
İstəkli qonağı olacağam mən.

**4**

Sən demə, düz imiş könlümə daman,
Keçilməz deyilmiş kölgəli barı.
Gəlib həndəvərə yetişən zaman
O qız özü açdı lay qapıları.

Sərin yol boyunca zanbaqlar içrə
Şırnaqlar, sızqovlar zümzümə çaldı.
Şirin cəh-cəhiylə son qoyub hicrə,
Bülbüllər könlümü ovsuna saldı.

Yabançı sevincin yad diyarında
Məni ağuşuna aldı qucaqlar.
O cılız, dilənçi arzularımdan
Daha gur səsləndi qızıl qolbaqlar.



Qızıl bir alovda yandığım dəmdə
Sərxoş bəxtiyarlıq qatdı başımı.
Unutdum yolumu, unutdum həm də
Yazıq ulağımı, – yol yoldaşımı.

**5**

Qoy bəşər dərdini gizlətsin əbəs,
Gül-çiçək içində qərq olar barı –
Bülbülün cəh-cəhi susdura bilməz
Dənizdə hönkürən uğultuları.

Bu səsdə duyduğum qəfil həyəcan
Xatırladır dəniz uğultusunu.
Qəribə bir yuxu görürəm bu an:
Gedir yorğun ulaq yollar uzunu.

Qızmar, xoş ətirli qaranlıq içrə
Odlu qollarıyla sarmaşıb mənə,
Narahat-narahat o, neçə kərə
Soruşur: "Nə olub, sevgilim, sənə?"

Bağın havasıyla, ətriylə bahəm
Udmaq istəyirəm yar nəfəsini.
Eşidir ürəyim, eşidir bu dəm
Uzaq qaranlığın yaxın səsini.

**6**

Ayıldım yuxudan bir sabahçağı,
Neçənci gün idi, heç bilmədim mən.
Qız isə yatırdı uşaq sayağı,
Onun yuxusuna girmişdim, deyən.

Könlümü ovlayan dan qaranlığı
Necə gözəl idi lətif çöhrəsi!

Artırdı qəlbimdə nigaranlığı
Gələn qabarmanın ahəngdar səsi.

Mavi pəncərəni açdım səhərə,
Dayanıb dinşədim... eşitdim ki, bəs
Dalğalar ardından qalxıb göylərə
Məni haraylayır yanıqlı bir səs.

Ulaq anqırırdı uzun-uzadı,
Nalə tək dolurdu səsi ürəyə.
Pərdəni sakitcə dartıb qapadım,
Bu şirin yuxunu uzadım deyə.

Elə ki sürüşüb barıdan aşdım,
Güllərin uyğusu pozuldu dən-dən.
Sanki əl idilər – bərk-bərk yapışdı
Güllərin tikanı ətəklərimdən.

7

Bu yol uc-bucaqsız deyildi belə,
Yox idi bu qədər çala-çuxur da.
Yollanıb gedirəm bomboş sahilə –
Evimlə ulağım qalıbdır orda.

Çəndə azmışammı yoxsa bu səhər?
Ələmi salırlar məni bu yolda?
Yaxşı yadımdadı daşlar, kəsəklər,
Yaxşı yadımdadı qaya da, kol da...

Bəs evim hardadı? – qəfil sürüşüb
Heyrətlə gözümü döyürəm burda.
Qayanın dibində torpağa düşüb
Pas atmış külüngə dəyirəm burda...

Qaldırıb yerindən əvvəlki kimi
(Yoxsa yuxudayam mən bəxtiqara?)



Zərb ilə endirdim paslı lingimi
Suyun dibindəki laylı daşlara...

Mavi oyuqlarda elə bu zaman
Zərbədən çaxnaşdı boz oktopadlar.[1]
Çaxnaşma düşəndə, yengəc qorxudan
Qaçıb dayazlıqda durdu biqərar.

Əl atdım... o qalxdı durduğu yerdən,
İynə qısqacları geniş açaraq.
Bir ayrı yengəclə görüşüb birdən
Vuruşub... birlikdə itdilər ancaq.

Başımı qaldırıb gördüm axırda
Qatıb qabağına yad bir ulağı,
Mən özüm saldığım köhnə cığırla
Külünglü bir fəhlə enir aşağı.

*6 yanvar 1914 – 14 oktyabr 1915*

[1] Oktopad – dəniz heyvanı

## ONİKİLƏR

### I

Qara gecə,
Bəyaz qar.
Rüzgar, rüzgar!
Durmaq olmur ayaq üstə.
Rüzgar, rüzgar,
Rüzgar əsir bütün ərzdə.

Külək burur
Dümağ qarı,
Qar altında – buz qatları.
Sürüşkəndi,
Çox çətindi.
Ah, neyləsin yazıq indi!

İp çəkilib
Bir evdən o birisinə.
İpdən şüar asılıbdır;
"Bütün hakimiyyət Müəssisələr Məclisinə!"
Qarı baxıb fəğan edir,
Başa düşmür, heç bu nədir.
Nəyə gərək belə şüar!
Palaz boyda bu parçalar?
Gör neçə cüt dolaq çıxar uşaqlara, –
Üryanlara, çılpaqlara...

Qar yığını üstdən aşdı
Toyuq kimi o, birtəhər.
– Ah, ay anam, havadarım!
– Üzdü bizi bolşeviklər!
Şiddətlidir külək yaman!
Heç şaxta da vermir aman!
Burjuy isə bir döngədə fikrə gedib,
Burnunu da yaxasında o, gizlədib.
Bəs o kimdir? – Saçı uzun,



Hey danışır xısın-xısın:
– Satqınlar!
– Rusiya yandı!
Ola bilsin yazıçıdır,
Xoşlisandı...

O yandasa susub gedir,
Qarageyim, uzunətək.
Keşiş yoldaş kədərlidir,
Niyə görək?

Yadındamı, harın-harın
Yeriyərdi bir zamanlar.
Parıldardı göbəyinin
Üstündəki xaçı par-par?..

Odur, orda
Qumral quzu dərisindən
Kürk geyinmiş bir kübar da
Pıçıldayır başqasına:
– Qərq olunduq göz yaşına...

Hopp! Sürüşdü,
Ağzı üstə yerə düşdü!
Vay, vay, aman!
Tut qolundan!
Külək hirsli,
Külək şəndi.
Burur, bükür
Ətəkləri,
Kəsir tökür
Biləkləri.
Cırıb atır
Şüarı da:
"Bütün hakimiyyət Müəssisələr Məclisinə!"
Külək əsir
Eləsinə,
Beləsinə...

Gəlir min-min əks-səda:
...Biz də iclas çağırmışdıq...
...Elə həmin bu binada...
...Həll etmək –
...Qərar verdik:
Bir dəfəsi – onca manat, bir gecəsi –
iyirmi beş...
Gərək heç kim az almasın...
Gedək, gecən xeyrə qalsın...
Gecədir. Küçə
Boşalır tamam.
Bir avara da
Büzüşür yaman.
Fit çalır külək...

Gəl, gəl, ey yazıq!
Gəl, gəl –
Öpüşək...
Çörək ver, çörək!
Qabaqda nə var?
Belə keç, görək!

Qara, qapqara bir səma.
Qəzəb, qüssəli bir qəzəb
qaynayır sinədə...
Qara qəzəb, müqəddəs qəzəb...
Ayıq ol, yoldaş!
Sayıq ol, yoldaş!

## II

Külək əsir,
Qar sovrulur birər-birər.
Fəqət gedir onikilər.

Tüfənglərdə qayış qara,
İşıq yağır baxsan hara.
Dişlərində – bükmə tütün,
Başlarında əzik kartuz.



Nə yaraşır, baxın, görün
Kürəklərə qırmızı tuz!

Azadlıq, azadlıq!
Xaçsız, filansız!
Trax-tıx, trax-tıx,
trax-tıx!

Nə soyuqdur, dostlar aman!
...Vankagilsə meyxanada oturublar...
– Katyanın corabında kerenka var!
– Vanyuşa da varlanıbdır, balam, daha...
– Biznən idi, çıxdı getdi soldatlığa!

– Köpəkoğlu, satdın bizi, sat, ay Vanya!
– İndi mənim atəşimi dad, ay Vanya!
Azadlıq, azadlıq,
Xaçsız, filansız!
Vanka Katkaya bənd olub, –
Nə? Kimə, nəyə bənd olub?

Trax-tıx, trax-tıx!

İşıq, işıq... baxsan hara...
Çiyinlərdə – qayış qara...
Möhkəm atın, mətin atın
İnqilabi addımları!
Marıqdadır mürgüləmir
Əksinqilab adamları!

Yoldaş, qorxma, tut tüfəngi,
Güllələyək bu taxtalı,
bu daxmalı,
yekə dallı
Rusiyanı –
çıxsın əngi!
Xaçsız, filansız!

## III

Getdi bizim uşaqlar,
Getdi qızıl orduya.
Getdi qızıl orduya –
Başını qurban qoya!

Kefsən, zəhərli həyat,
Ey keflərin qəşəngi!
Cındır, yamaqlı palto,
Avstriya tüfəngi!

Qoy titrəsin burjuylar,
Qanımızda yanğın var.
Od qoyuruq dünyaya,
Özün yar ol, xudaya!

## IV

Budur, bükür külək qarı,
Vanka uçur Katka ilə;
Hay-harayı qalxıb zilə...
Dişlələrdə – tok fanarı...
Tez ol, barı!
Vanka, əsgər şinelində,
Səfeh-səfeh bir əlində
Şəvə kimi bığlarını
Eşir, burur,
Göz də vurur...

Vanka yaman kürəklidir,
Vanka yaman ürəklidir!
Gah Katyanı qucaqlayır,
Gah danışır saman – sayır...

Üzüqoylu yumarlandı,
İnci dişlər par-par yandı...
Aman Katyam, mənim Katyam,
A dilbərim,
Yekəpərim...



## V

Katya, sənin boynunda
Sağalmayıb bıçaq yeri.
Katya, sənin qoynunda
Təp-təzədir cırmaq yeri!
Pəh-pəh, oyna bir!
Ayaqların nə gözəldir!

İpək maldan don geyərdin,
Di bir də gey, bir də gəz!
Zabitləri çox sevərdin,
Di bir də sev, bir də gəz!
Pəh-pəh bir də gəz!
Ürək buna tab gətirməz!

Katya, zabit yadındamı,
Bıçağa verdi başın...
Şortu, yoxsa unutmusan,
Köhnəlibmi yaddaşın?
Pəh-pəh, təzələ!
Yanında yer sal, tez elə!

Boz getrilər geyərdin.
Milyon şokolad yeyərdin.
Yunkerləri atmısan –
Soldatlardan tutmusan.
Pəh-pəh, günah işlə!
Könlün gülər bu gedişlə!

## VI

Hey irəli çapa-çapa,
Fəryad içrə uçur çapar.
Dayan, dayan! Tut, Andrey!
Köməyə gəl, Petruxa, hey!

Trax-trarax-tax-tax-tax-tax!
Göyə qalxdı qar, gül sayaq!..

Çapar qaçır Vanka ilə...
Çək tətiyi! Bir tez elə!
Trax-tararax! Al, indi bax,

. . . . . . . . . . . . . . . . . . . .
Gör necədir oynaş olmaq!

Cırdın, əbləh! Yaxşı, baxaq,
Görüşərik sənlə sabah!

Katya hanı? – Ölüb, ölüb!
Baş-gözünü güllə dəlib!

Nə-ə, Katya, sevinirsən?..
Canın çıxsın öl indi sən!
Möhkəm atın, mətin atın
İnqilabi addımları!
Marıqdadır, Mürgüləmir
Əksinqilab adamları!

## VII

Yenə gedir onikilər,
Çiyinlərdə – tüfəngləri.
Rəngi qaçıb, təkcə qatil
Əsiridir qəm-kədərin.
O, getdikcə, yeyin gedir,
Lap itirib öz halını.
Düyün salıb boğazında, –
Aça bilmir dəsmalını.
– Nədir, yoldaş, nə var axı?
– Nədir, dostum, çaşmısanmı?
– Nə tökülüb qaşqabağın?
Ay Petruxa, din, danış bir,
Katyayamı heyfin gəlir?

– Nə gizləyim, eh, a dostlar.
Vurulmuşdum lap ürəkdən.
Qara, sərxoş gecələri
Keçirərdim o qızla mən.



– Onun qaynar gözlərində
Şübhə yayan hal ucundan,
Sağ çiyninin kənarında
Al-qırmızı xal ucundan,
Məhv elədim, mən ağlı kəm,
Məhv elədim hirsli ikən.

– Əclafa bax, hüt-hüt ötür,
Arvadımsan, Petya, nəsən?
İstəyirsən ürəyini
Tərs üzünə çevirəsən?
– Tez ol, düzəlt sən qəddini!
– Özünü yığ, bil həddini!

– Ta zaman da o deyil ki,
Səninlə oynayaq, duyaq.
Bundan sonra onu bil ki,
Yükümüz ağır olacaq!

Dinləyərək o, hamını,
Yavaşıdır addımını...
Baş bulayır Petya indi,
Bax, bax, yenə məzələndi...

Pah, pah!
Məzələnmək deyil günah!

Qıfıllayın qapıları, –
Gəlir soyğunçu qatarı!

Zirzəmiləri açın, aç, –
Seyrə çıxıb ac yalavac!

## VIII

Dərddən, qubardan
Sinəm düyündü!
Darıxıram mən,
Eh, bu nə gündü!

Papağı günə verib,
Yaşayıram, yaşıya...

Bekarlıqdan başımı
Qaşıyıram, qaşıya...

Tumdan-zaddan çırtdaram,
Tum qoymuşam qarşıya...
Finka, bıçaq çəkərəm
Hər yetənə, naşıya!..

İtil gözümdən, ey sərçə burjuy!
İçərəm qanın,
Olarsan indi
Bir qaraqaşlı
Canan qurbanı...
Xudaya, rahat eylə... mən qulunun ürəyini...
Darıxıram!

## IX

Kəsilmiş şəhərdə hay da, haray da,
Sükut içindədir Neva qülləsi;
Daha görünməyir qorodovoy da,
Uşaqlar, indi də çıxırsız gəzin!

Gizləyib burnunu yaxalığında
Dayanıb döngədə burjuy tənha, tək.
Qısıb quyruğunu onun yanında
Qartır cod tükünü qotur bir köpək.

Burjuy dayanıbdı, ac köpək sayaq,
Durub səs-səmirsiz, durub sualtək.
Onun arxasında quyruq qısaraq,
Durub köhnə dünya – əsilsiz köpək.



## X

Qopdu tufan, qopdu yaman,
Aman tufan, aman tufan!
Seçmək olmur adamları,
Seçmək olmur dörd addımdan!

Burum-burum buruldu qar,
Dirək kimi quruldu qar...
– Aman tufan, insaf elə!
– Ehey, Petka, çox da belə
Yalan demə, ağ olur bu!
Bir qulaq as,
Danış, nədən qoruyubdu
Səni qızıl ikonostas?
Ağlın uçub, başın boşdur,
Fikir elə, beyninə vur, –
Öz eşqinin ucundan sən,
Əliqanlı deyilmisən?
– Addımını mətin at sən!
Yaxındadır qarı düşmən!
İrəli dur, irəli bax,
İşçi xalq!

## XI

Gedirlər övliyasız,
Önə dikilib gözlər.
Hər şeyə hazırdılar,
Heç şey əsirgəməzlər...

Tuşlanıbdı tüfəngləri
Gizlindəki düşmənlərə...
Səs-səmirsiz döngələrə,
Qar tufanı qopan yerə...
Yumşaq qar yığınına –
Çəkmə batıb hopan yerə...
Əllərində
Qızıl bayraq.

Addımlarda
Qüdrətə bax!
Yağı düşmən
Oyanacaq...
Tez sovurur boran gözə
Gündüz-gecə
Hey durmadan...
İrəli dur, irəli bax,
Ey işçi xalq, işçi xalq!

## XII

...Mətin gedir onikilər...
– Kimsən orda? Keç qabağa.
O, küləkdir, o, küləkdir.
Dolaşıbdır al bayrağa...

Öndə –soyuq qar yığını,
– Kimsən orda? Dillən görək!
Sürüyərək quyruğunu,
Axsayır arxada köpək...

– Çəkil, qotur! Öldürərəm
Qundağıyla tüfəngimin!
Cəhənnəm ol, köhnə dünya,
Sən də qotur bir it kimi!

Diş ağardır yalquzaqtək
Quyruq qısıb-gəlir yenə –
O əsilsiz, soyuq köpək...
– Kimdi gələn? Ey, dinsənə!

– Al bayrağı yellədən kim?
– Bu zülmətdə gəl gör indi!
– O evlərin arxasında
Oğrun-oğrun gəzən kimdir?



– Hara qaçsan tutacağam,
Üzü sulu təslim ol, sən!
– İşin bitib, bil, onsuz da
Qurtarmazsan güllələrdən!
Trax-tax-tax! Təkcə səda
Əks olunur binalarda ...
Tufanınsa gülüşləri
Axıb batır soyuq qarda...

Trax-tax-tax!
Trax-tax-tax...

Belə mətin addımlarla
gedir onlar...
Dal sırada – qotur köpək,
Öndə isə,
Həzrət İsa –

Əllərində qanlı bayraq,
Başındakı çətir dümağ,
Tufan içrə gözə dəyməz,
Tilsimlidir – güllə dəyməz,
Zərif, sirli addımlarla,
Gedir, gedir dümağ qarla...

*Yanvar, 1918*

## SKİFLƏR

*Tühaf səslənsə də panmonqolizm,*
*Mənim qulağıma xoş gəlir bu söz.*
***V.Solovyov***

Siz – milyonlar. Bizlər isə – ərzi bürüyən
Sürü-sürü, axın-axın, axıb yeriyən...

Sizlər bizdən, bizlər sizdən azmı halıyıq!
Hünəriniz varsa, gəlin, vuruşun bizlə.
Bəli, bəli, skiflərik! Asiyalıyıq –
Qıyıq-qıyıq, həris-həris gözlərimizlə!

Sizlər üçün əsrlərdi, bizlərçün bir an.
Bu xolopun sözlərini düşünün dərin,
Biz olmuşuq arasında sipərtək duran
Monqollarla Avropanın – düşmən irqlərin.

Əsrlərlə axınları susdurub elə
Əsrlərin kürənizdə ocaq çatmağı.
Ağlınıza sığmayıbdı bircə yol belə
Lissabonun, Messinanın yerə batmağı!

Yüz illərlə gözləriniz baxıb Güneyə,
Yığıb bizim inciləri əritmək üçün.
Məsğərəylə vaxt güdübsüz "ya fürsət" deyə
Top-tüfəngi Şərqə sarı yürütmək üçün.

Vədə yetib, məqam çatıb, bəla da haqdı.
Gündən-günə hey çoxalıb artır həqarət.
Amma zaman gələcək ki, qalmayacaqdı
Daha sizin Pestumlardan əsər-əlamət!

Qoca dünya, nə qədər ki, can var tənində,
Nə qədər ki, qovrulursan şirin əzabda,
Dayan qədim müəmmalı Sfinks önündə
Edip kimi ağıllı ol, qüruru tapda!



Rusiya da bir Sfinksdir! – gülən ağlayan...
Ürəyində tüğyan edib axdıqca qanlar,
Sənə baxır, sənə baxır, sənə hər zaman,
Baxışında nifrət də var, məhəbbət də var...

Bəli, bizim qanımızda sevgi axır ki,
Çoxlarınız çoxdan bilmir mənası nədir!
Bəli, sizin yadınızdan çoxdan çıxıb ki,
Bu məhəbbət həm yandırır, həm də məhv edir!

Soyuq, odlu rəqəmi də sevir qəlbimiz,
O ilahi vergilərin xülyasını da;
Sivri qalın məğzini də dərk edirik biz,
Almanların fikri duman dühasını da...

Yadımızda əbədidir Roma çətri də,
Parisdəki cəhənnəmin xeyir-şəri də.
Uzaq lumu bağlarının uzaq ətri də
Qoca Kölnün boz tüstülü nəhəngləri də...

Vücud sevən, can sevənin əslinə qalsa,
Rəngə, qana, qoxuya da fərq qoymuruq biz.
Amma bizi qınamayın xurd-xəşil olsa
Ağır, zərif pəncəmizdə sümükləriniz!

Köçəriyik, xam atların burnundan burub
Köplərini yatırmağa adət etmişik.
Harınların, bədöylərin bağrını yarıb
Yalmanına yata-yata çapıb getmişik...

Birdəfəlik vida deyib qılınc-qırğına,
Gəlin! Gəlin, qoynumuza, görün, sülh, nədi!
Nə qədər ki, gec deyildir – qılınclar qına!
Ey yoldaşlar! Qardaş olaq, gəlin əbədi!

Gəlməsəniz – islanmışın sudan nə pakı,
O xainlik əlimizdən gələr bizim də.

Amma sizi lənətləyər sizdən sonrakı
Xəstə nəsil əsrlərlə bu yer üzündə!

Sıx meşələr, yollarboyu çəkilib geri,
Gözəl-göyçək Avropaya yol verərik biz!
Güldüyünüz asiyalı sir-sifətləri
Çevrilərək sizə sarı çöndərərik biz!

Gəlin! Gəlin, lap hamınız! Uralda yer var...
Meydanları təmizləyib açaraq bu gün,
İnteqralla nəfəs alan polad maşınlar
Vəhşi monqol ordasıyla vuruşmaq üçün!

Özümüzsə sizə sipər deyilik daha!
Döyüşə də girişmərik özümüz qəti.
Gendən-genə seyr eləyək deyirik daha
Necə bitir qovğaların puç aqibəti!

Bundan sonra tərpənməyib, durub baxarıq
Azğın hunlar şəhərləri oda yaxanda,
Dirinizin ətlərini şişə taxaraq
Ölünüzün ciblərini eşib baxanda!..

Qoca dünya! Son dəfəsə ayıl, ağıllan!
Nə qədər ki, tükənməyib sonuncu tabı,
Səni nurlu süfrəsinə qardaş çağrılan
Bir məclisə dəvət edir barbar rübabı!

*30 yanvar 1918*



## MÜNDƏRİCAT

*Ön söz* . . . . 4

### ŞEİRLƏR

"Nur yaysın gecəyə ayın ziyası" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 9
"Elə ki əndişə, təlaş uyuyar" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 9
"Dəniz kimi daima tufanlıdır bu həyat" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 10
Yağışdan sonra (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 10
"Yadındamı küylü şəhər" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 11
"Uzaqdan əsib külək" (*tərcümə edəni Tofiq Mahmud*) . . . . 11
"Kimsə pıçıldayır, qəhqəhə çəkir" (*tərcümə edəni Tofiq Mahmud*) . . . . 12
"Səhər... duman... oyandım" (*tərcümə edəni Tofiq Mahmud*) . . . . 12
Fal açmaq (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 13
"Tez-tez görüşərdik qürub çağında" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 13
"Vurğunam, aşiqəm, gəncəm, cavanam" (*tərcümə edəni Cabir Novruz*) . . . . 14
"Önündə qızıl dərə" (*tərcümə edəni Tofiq Mahmud*) . . . . 15
"Nəğməli bir yuxu..." (*tərcümə edəni Tofiq Mahmud*) . . . . 15
"Səninlə görüşdən qorxuram yaman" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 16
"Binalar çoxalır..." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 16
Ofeliyanın nəğməsi (*tərcümə edəni Cabir Novruz*) . . . . 17
"Düz bir il əsmədi pəncərə zağ-zağ" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 18
"Külək göyəmlikdə..." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 18
"Bu dünyadan o dünyaya..." (*tərcümə edəni Cabir Novruz*) . . . . 19
"Günlər ötdü" (*tərcümə edəni Cabir Novruz*) . . . . 20
"Qışın qasırğalı, tufanlı çağı" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 20
"Ömrün gəmisi" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 21
"Kilsə xorunda oxuyurdu qız" (*tərcümə edəni Cabir Novruz*) . . . . 22
"Yavaşıdı nurlu külək" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 22
Mitinq (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 23
Harınlar (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 25
Gecə bənövşəsi (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 26
"Əziz qardaş!.." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 35
Yad qadın (*tərcümə edəni Cabir Novruz*) . . . . 36
Rusiya (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . 38

"Gözəl şahzadə qız..." (*tərcümə edəni Tofiq Mahmud*) . . . . . . . . . . . . . . . 40
Çardaqda (*tərcümə edəni Tofiq Mahmud*). . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
"Məlul-məlul gəzirəm" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . 42
"Pəncərə yuxuda yatırdı onda" (*tərcümə edəni İsa İsmayılzadə*) . . . . . . . . 44
Qıza (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45
Sərbəst fikirlər (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . 46
"Dinlədim torpağı..." (*tərcümə edəni Tofiq Mahmud*) . . . . . . . . . . . . . . . . 57
"Bahardır yenə..." (*tərcümə edəni Cabir Novruz*). . . . . . . . . . . . . . . . . . . 57
"Yuxuma girəndə şən düşüncələr" (*tərcümə edəni Cabir Novruz*). . . . . . . 58
"Körpü üstə dindi tütək" (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . 59
"Çaylar axır qəmli-qəmli..." (*tərcümə edəni Cabir Novruz*) . . . . . . . . . . . . 60
"Səslənəndə tufan..." (*tərcümə edəni Tofiq Mahmud*). . . . . . . . . . . . . . . . 60
"Sən ki pıçıltılı sözdən doğuldun" (*tərcümə edəni Tofiq Mahmud*) . . . . . . 61
"O düz on beş yaşındaydı..." (*tərcümə edəni Cabir Novruz*). . . . . . . . . . . . 61
Dostlarıma (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . 62
"Tanışdır, doğmadır..." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . 64
Rusiya (*tərcümə edəni Cabir Novruz*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
"Şəhər tünlüyündən..." (*tərcümə edəni İsa İsmayılzadə*). . . . . . . . . . . . . . 65
Venesiya (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . 66
Florensiya (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . 67
"Olubdu, olubdu..." (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . . . . 71
Ravenna (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . . . . . . . . . . . . 72
Spoletolu qız... (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . . . . . . . 73
Moskvada səhər (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . 74
"Büllur kimi ağ dumandan" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . 74
Adalarda (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
"Bir qarlı toranda..." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . 76
"Birgəmi can verək..." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . 77
Komissarjevskayanın ölümünə (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . 78
Demon (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 79
Dəmir yolunda (*tərcümə edəni Cabir Novruz*). . . . . . . . . . . . . . . . . . . . . . 80
"Bizim körfəz fikrindəmi" (*tərcümə edəni Cabir Novruz*) . . . . . . . . . . . . . 81
Xalq və şair (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . . . . . . . . . . 82
Ölüm rəqsləri (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . 84
"Elə an olar ki, gülər üzünə" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . 88
"Hey dünyalar, illər uçar dəhşət ilə" (*tərcümə edəni Cabir Novruz*) . . . . . 89



İlham pərisinə (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . 90
"Dünyada tək-tənha qaldıq ikimiz" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . 91
"Belə bir oyun var..." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . 92
"Axşamlar nə yaman artır həyəcan" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . 93
"Dəlisov bir ömür keçir könlümdən" (*tərcümə edəni İsa İsmayılzadə*). . . . 94
"Çulğaya könlümü çılğın bir həyat" (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . 95
"Məhəbbət azaddır..." (*tərcümə edəni Cabir Novruz*). . . . . . . . . . . . . . . . . 95
Qadın (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 96
"Abırın, həyanın atıb daşını" (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . 98
"Son hamıdan vəfalıydın..." (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . 99
"Hamıdan gözəl idin" (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . . . 99
Məhkəmədən əvvəl (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . 100
"Dərin-dərin qəbir qazıb basdırarlar" (*tərcümə edəni Cabir Novruz*). . . . 101
"Zarafata saldın əvvəl hər bir şeyi" (*tərcümə edəni Cabir Novruz*) . . . . . 102
Çalağan (*tərcümə edəni Cabir Novruz*). . . . . . . . . . . . . . . . . . . . . . . . . . 102
Puşkin evinə (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . 103

## POEMALAR

Qisas (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 107
Bülbüllü bağ (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . 120
Onikilər (*tərcümə edəni Eyvaz Borçalı*). . . . . . . . . . . . . . . . . . . . . . . . . . 126
Skiflər (*tərcümə edəni Eyvaz Borçalı*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 139

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Azər Rüstəmli* |
| Korrektorlar: | *Elnaz Xəlilqızı*<br>*Leyla Hüseynova* |

Yığılmağa verilmişdir 04.05.2007. Çapa imzalanmışdır 19.07.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 9. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 69.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.